# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 423 Dekabr 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



YENİ İLİNİZ
HAPPY



## HİSSA ŞADLIQ SARAYINDA XƏZƏR UNİVERSİTETİNİN YENİ İL ŞƏNLİYİ

2022-ci il dekabrın 26-da Xəzər Universiteti Hissa Şadlıq sarayında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə həsr olunmuş şənlik tərdbiri keçirdi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış edərək, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə kollektivi təbrik etdi. Yola salınan ildə olduğu kimi, gələn ildə də kollektivə səy və fədakarlıqla çalışaraq, “Xəzər”in nüfuz və şöhrətini daha da artırmağı arzuladı.

Tədbirin gedişində universitetin rektoru İradə Xəlilova, prorektor İsaxan İsaxanlı, universitetin professoru, Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova, İngilish dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, Hüquq departamentinin müdiri Cabir Xəlilov və Riyaziyyat departamentinin müəllimi İbrahim Nəbiyev çıxış edərək, kollektivə səmimi təbriklərini və xoş arzularını çatdırdılar.

Universitetin müəllimləri - Məhsəti Cabbarovanin ifasında mahnılar səsləndi, Səbinə İsmayılovanın rəhbərliyi ilə rəqs qrupu milli rəqsləri nümayiş etdirdi.

Universitetin şənlik tədbiri iştirakçıların xoş əhval-ruhiyyəsi ilə başa çatdı.





## NEW YEAR PARTY OF KHAZAR UNIVERSITY IN HISSA CELEBRATION HOUSE

On December 26, 2022, Khazar University held a festive event dedicated to the Day of Solidarity of World Azerbaijanis and the New Year at Hissa Celebration House. The administration and employees of the university participated in the event.

Professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, made a speech and congratulated the staff on the Day of Solidarity of Azerbaijanis of the World and the New Year. He wished to further increase the reputation and fame of Khazar University by working diligently and selflessly to the team in the coming year, as in the previous year.

# MÜBARƏK! NEW YEAR!



During the event, university rector Irada Khalilova, vice-rector Isakhan Isakhanli, professor of the university, Honored art worker, composer Javanshir Guliyev, head of the Department of Languages and Literatures Dilbar Zeynalova, head of the Department of Law Jabir Khalilov and the lecturer of the Mathematics Department Ibrahim Nabiyev made speeches and expressed their sincere congratulations and good wishes to the staff.

The faculty members of the university - Mahsati Jabbarova sang songs and Sabina Ismayilova performed national dances with the dance group led by her.

The festive event of the university ended with the good mood of the participants.







# İÇİNDƏKİLƏR

Professor, akademik Hamlet İsaxanlının Gürcüstana işgüzar səfəri ........................... 6
"Abdulla müəllim xatirələrdə" kitabı çap olunub ........................... 12
Nailəxanım təqaüdünü alan tələbələr "Qadınlar, Sülh və Təhlükəsizlik" adlı konfransda ........................... 15
"Xəzər"in əməkdaşları Latviya Respublikasının 104-cü ildönümünə həsr olunmuş rəsmi qəbulda ........................... 16
"Gələcəyini Qur!" Layihəsinin iştirakçıları Xəzər Universitetində ........................... 19
İsveç Kənd Təsərrüfatı Elmləri Universiteti ilə onlayn görüş ........................... 22
UniLab layihəsi çərçivəsində İspaniyanın UPF Barselona İdarəetmə Məktəbinə səfər ........................... 24
Zonguldak Bülent Ecevit Universitetinin nümayəndələri "Xəzər"də ........................... 26
Bp tərəfindən məlumat sessiyası keçirildi ........................... 28
Aşıq Kamandarın 90 illik yubileyi ........................... 30
Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş konsert........................... 34
*Hamlet İsaxanlı.* Nizami Gəncəvi. Kimliyi və ideyalar aləmi ........................... 40
*Jalə Rzayeva.* Tələbələrin xarici səfərdən təəssüratları........................... 50
Xəzər Universiteti bədii ədəbiyyatda ........................... 54
"Dil, Ədəbiyyat və Dilçilik Fəlsəfəsi" üzrə Üçüncü Beynəlxalq Konfrans ........................... 56
"Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının Bakı Avrasiya Universitetində təqdimatı ........................... 59
Xəzər Universiteti və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun birgə təşkilatçılığı ilə beynəlxalq elmi konfrans........................... 60
Sumqayıt "Dünya" məktəbində tədbir: "İqlim dəyişmələri və biz" ........................... 64
Professor, akademik Hamlet İsaxanlı ADPU-da ikili təhsil proqramı ilə oxuyan tələbələrə mühazirə demişdir ........................... 66
Xəzər Universitetində "Avropa İttifaqının Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə cavabı" mövzusunda simulyasiya oyunu ........................... 69
Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbərliyi və gənc könüllüləri Xəzər Universitetinin qonağı oldular........................... 70
Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbərliyi və könüllüləri "Dünya" məktəbində........................... 74

*Jurnalın üz qabığında: Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş tədbirdə*

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Professor, academician Hamlet Isakhanli`s Business Visit of to Georgia........................ 6
The book "Abdullah müəllim in memories" Published ........................................................ 12
Nailekhanim Scholarship Students at "Women, Peace and Security" Conference.... 15
Khazar University Staff Members at Official Reception Dedicated to the 104th Anniversary of the Republic of Latvia ........................................................................................ 16
"Build your future!" Project Participants at Khazar University ........................................ 19
Online Meeting with Swedish University of Agricultural Sciences ............................ 22
Study Visit to UPF Barcelona School of Management in Spain within UniLab project ........................................................................................................................... 24
Representatives of Zonguldak Bulent Ecevit University at Khazar University .............. 26
Information Session Held by BP .......................................................................................... 28
Ashig Kamandar's 90th Anniversary .................................................................................... 30
Concert Dedicated to the 100th Anniversary of Genius Composer Fikret Amirov.......... 34
*Hamlet Isakhanli.* Nizami Ganjavi. His identity and the world of ideas (*in Azerbaijani*) .. 40
*Jale Rızayeva.* Foreign Trip İmpressions of Students........................................................ 50
Khazar University in Fiction................................................................................................. 54
The 3rd International Conference on the Philosophy of Language, Literature and Linguistics .......................................................................................................................... 56
Presentation Event of "My Karabakh or Karabakh Knot" Book at Baku Eurasian University ........................................................................................................................... 59
An International Scientific Conference under the Joint Organization of Khazar University and Institute of Soil Science and Agrochemistry ........................................................ 60
Event at Sumgayit "Dunya" school: "Climate changes and we"......................................... 64
Professor, academician Hamlet Isakhanli gives a lecture to students enrolled in the dual education program of ASPU ................................................................................................ 66
Countrywide Simulation on "EU response to Russia's invasion of Ukraine" at Khazar University............................................................................................. 69
Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye and young volunteers at Khazar University.......................................................................... 70
Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye and volunteers at "Dunya" school........................................................................................... 74

*On the cover of the journal: At the event dedicated to the 100th anniversary of Fikret Amirov*

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ
# PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI'S

*Noyabrın 19-21-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Gürcüstanda işgüzar səfərdə olub. Səfərdə universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı da iştirak edib.*

## HAMLET İSAXANLININ HƏMTƏSİSÇİSİ OLDUĞU ŞƏRQ-QƏRB TƏDRİS UNİVERSİTETİNDƏ GÖRÜŞ

Noyabrın 19-da Tbilisidə Hamlet İsaxanlının həmtəsisçilərindən biri olduğu Şərq-Qərb Tədris Universitetində təsisçilərin və rəhbər işçilərin iştirakı ilə görüş keçirildi. Görüşdə Şərq-Qərb Tədris Universitetində tədrisin başlanması, ortaya çıxan problemlər, tanınmış mütəxəssislərin işə cəlb edilməsi, tədris planı, tələbə cəlbi və s. məsələlər ətrafında müzakirələr aparıldı, universitet təsisçilərinin ayrıca yığıncağının keçirilməsi qərara alındı.

## MEETING AT EAST-WEST TEACHING UNIVERSITY CO-FOUNDED BY HAMLET ISAKHANLI

On November 19, a meeting was held in Tbilisi with the participation of founders and executives at East-West Teaching University, where Hamlet Isakhanli was one of the founders. At the meeting, discussions were held on the beginning of teaching at the East-West Teaching University, emerging problems, recruitment of well-known specialists, curriculum, student involvement and other issues, and it was decided to hold a separate meeting of the university founders.

## HAMLET İSAXANLI GÜRCÜSTAN AZƏRBAYCANLILARI İLƏ GÖRÜŞÜB

Noyabrın 19-da Tbilisidəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində Azərbaycanda fəaliyyət göstərən Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, eləcə də Tbilisidə yeni fəaliyyətə başlayan Şərq-Qərb Tədris Universitetinin həmtəsisçisi, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor, akademik Hamlet İsaxanlı ilə Gürcüstan azərbaycanlılarının görüşü keçirilib.

Görüşdə ölkələrimiz arasında mədəni, humanitar, təhsil və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri, Gürcüstanda yaşayan azərbaycanlıların təhsil problemləri, kadr çatışmazlığı və bu problemlərin həlli yolları diqqət mərkəzində olub. Görüşdə icmanı narahat edən təhsil sahəsində yaşanan problemlər və həlli yolları müzakirə edilib.

## HAMLET ISAKHANLI MET WITH GEORGIAN AZERBAIJANIS

On November 19, a meeting was held at the Azerbaijan Cultural Museum named after Mirza Fatali Akhundov in Tbilisi, the Chairman of the Board of Directors and Trustees of Khazar University as well as the co-founder of the newly established East-West Teaching University in Tbilisi, full member of the National Academy of Sciences of Georgia, professor, academician Hamlet Isakhanli of Georgia A meeting of Azerbaijanis was held.

The meeting covered the prospects of development of relations between our countries in cultural, humanitarian, educational and other fields, educational problems of Azerbaijanis living in Georgia, lack of personnel and ways to solve these problems were in focus. Moreover, the problems experienced in the field of education and the ways to solve them were in focus at the meeting.

# GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

# BUSINESS VISIT OF TO GEORGIA

*On November 19-21, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli paid a business visit to Georgia. The vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli attended the visit as well.*



Gənc alim, iqtisadiyyat üzrə fəlsəfə doktoru, ictimai fəal Aygül İsayeva çıxış edərək, Gürcüstanda soydaşlarımızın təhsil sahəsində yaşadıqları problemlərdən danışıb, Azərbaycandilli məktəblərin sayının ilbəil azaldığını diqqətə çatdırıb, milli məktəblərdə kadr çatışmazlığını, bu və digər problemlərin həlli istiqamətində atılan addımları diqqətə çatdırıb. Eyni zamanda, Gürcüstanın dövlət strukturlarına edilən müraciətlər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov Azərbaycan dövlətinin soydaşlarımıza göstərdiyi dəstək barədə məlumat verib. Təhsil sahəsinə yatırılan sərmayələrdən, SOCAR-ın Gürcüstan nümayəndəliyi tərəfindən bu ölkənin universitetlərində təhsil alan azərbaycanlı gənclərin təhsil haqlarının ödənilməsindən söz açan müşavir deyib ki, bu dəstək davamlı olaraq həyata keçiriləcək.

Professor Hamlet İsaxanlı Xəzər Universitetinin təsis olunması zərurətindən, bu zaman qarşılaşdığı problemlərdən və onların həlli yollarından danışıb. O, Gürcüstanda həmtəsisçisi olduğu universitetin məqsəd və məramı barədə

*(Ardı səh.8-də)*

Aygul Isayeva, a young scientist, doctor of philosophy in economics, social activist spoke about the problems that our compatriots are experiencing in the field of education in Georgia, drew attention to the fact that the number of Azerbaijani-language schools is decreasing year by year, the lack of staff in national schools, and the steps taken to solve these and other problems. At the same time, she gave detailed information to the participants of the meeting about the appeals made to the state structures of Georgia.

Then Eldar Bayramov, adviser of the Azerbaijani embassy in Georgia, informed about the support of the Azerbaijani state to our compatriots. Talking about investments made in the field of education, payment of tuition fees of Azerbaijani students studying in the universities of this country by SOCAR's representative office in Georgia, the advisor said that this support will be provided continuously.

Professor Hamlet Isakhanli talked about the need to establish Khazar University, the problems he encountered at that time and ways to solve them. He informed about the goals and objectives of the university he co-founded in Georgia and emphasized that he is always ready to

*(To be continued page 8)*

məlumat verib, Gürcüstan azərbaycanlılarına hər zaman dəstək olmağa hazır olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, Tbilisidə fəaliyyət göstərən "Şərq-Qərb Tədris Universiteti" cari il avqustun 9-da beynəlxalq akkreditasiyadan keçib və tam hüquqi fəaliyyət göstərir. Hələlik tibb ixtisası üzrə kadr hazırlayan tədris ocağında gələcəkdə digər ixtisaslar üzrə də kadrların hazırlanacağı vurğulanıb.

Gürcüstan ziyalıları Şərq-Qərb Tədris Universitetinin nəzdində müəllim hazırlığı, həmçinin, teatr və jurnalistika üzrə fakültə və departamentlərin açılması ilə bağlı professor H.İsaxanlıya müraciət ünvanlayıblar.

**Xətayi Əzizov**
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Tbilisi*

support Georgian Azerbaijanis.

It was reported that "East-West Teaching University" operating in Tbilisi passed international accreditation on August 9 of this year and is fully legal. It was emphasized that in the future, the educational center that prepares personnel for medical specialty will train personnel for other specialties as well.

Georgian intellectuals have appealed to professor H. Isakhanli regarding the opening of faculties and departments for teacher training and theater and journalism at the East-West Teaching University. It should be noted that another co-founder of the university is professor Teymuraz Khurodze, former vice-rector of Tbilisi State University named after Ivane Javakhishvili.

**Khatai Azizov**
*Special correspondent of*
*AZERTAC in Tbilisi*

*https://azertag.az/xeber/Hamlet_Isaxanli_Gurcustan_azerbaycanlilari_ile_gorusub-2380627*

## "ABDULLA MÜƏLLİM XATİRƏLƏRDƏ" ADLI KİTABIN TƏQDİMAT MƏRASİMİ

Noyabrın 20-də Gürcüstanın Qardabani rayonunun Kosalı kəndində, Hamlet İsaxanlının ata ocağında Xəzər Universiteti Nəşriyyatında çap edilmiş "Abdulla müəllim xatirələrdə" adlı kitabın təqdimat mərasimi keçirildi. Tədbirə gəncliyindən ömrünün sonuna qədər Kosalı orta məktəbində riyaziyyat müəllimi işləmiş və dərin hörmət qazanmış Abdulla İsayevin həmkarları, bölgənin qabaqcıl insanları, Kosalı orta məktəbinin məzunları toplaşmışdılar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, aka-

## PRESENTATION CEREMONY OF THE BOOK "ABDULLAH MÜƏLLIM IN MEMORIES"

On November 20, in the village of Kosali, Gardabani region of Georgia, in the ancestral home of Hamlet Isakhanli, the presentation ceremony of the book "Abdulla müəllim in memories" ,published by Khazar University Publishing House, was held. The gathering brought together colleagues of Abdulla Isayev, whose memories are given in the book, from Kosalı secondary school where he worked as a mathematics teacher from his youth until the end of his life and gained deep respect, leading figures of the region, and graduates of Kosalı secondary school.

The founder of Khazar University, the chairman of the Board of Directors and Trus-

demik Hamlet İsaxanlı, Xəzər Universitetinin İdarəetmə və tələbələrlə iş üzrə prorektoru, filologiya elmləri doktoru İsaxan İsaxanlı atalarının xatirəsini əziz tutaraq tədbirə gələnlərlə səmimi söhbət etdilər.

Təqdimat mərasimində çıxış edənlər Abdulla müəllim haqqında qayğıkeş ailə başçısı, təcrübəli, nüfuzlu pedaqoq, xeyirxah insan, el adamı kimi maraqlı xatirələrini danışdılar, onu hörmət və ehtiramla yad etdilər.

İştirakçılara "Abdulla müəllim xatirələrdə" kitabı hədiyyə olundu.

tees, professor, academician Hamlet Isakhanli, Khazar University vice-rector for Management and Student Affairs doctor of philology Isakhan Isakhanli, cherished the memory of their father and had a sincere conversation with those who came to the event.

Those who spoke at the presentation ceremony shared their interesting memories about Mr. Abdulla as a caring family head, an experienced, influential teacher, a kind person, and remembered him with respect and honor.

The participants were presented with the book "Abdulla müəllim in memories".

## HAMLET İSAXANLININ AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRİ FAİQ QULİYEVLƏ GÖRÜŞÜ

Noyabrın 21-də Hamlet İsaxanlı Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşdü. Görüşdə Gürcüstan azərbaycanlılarının problemləri, Azərbaycan məktəblərində Azərbaycan dilinin tədrisi, azərbaycandilli məktəblərdə müəllim çatışmazlığı, bu istiqamətdə kadr hazırlığı prosesində Azərbaycan ali məktəblərinin iştirakı və s. məsələlər ətrafında müzakirələr aparıldı.

## HAMLET ISAKHANLI'S MEETING WITH AZERBAIJAN'S AMBASSADOR TO GEORGIA, FAIG GULIYEV

On November 21, Hamlet Isakhanli met with Azerbaijan's ambassador to Georgia, Faig Guliyev. At the meeting, the problems of Georgian Azerbaijanis, the teaching of the Azerbaijani language in Azerbaijani schools, the lack of teachers in Azerbaijani-speaking schools, the participation of Azerbaijani universities in the process of staff training in this direction and other issues were discussed.

## ŞƏRQ-QƏRB TƏDRİS UNİVERSİTETİNDƏ TƏSİSÇİLƏRİN YIĞINCAĞI

Noyabrın 21-də Şərq-Qərb Tədris Universitetində təsisçilərin yığıncağı keçirildi. Yığıncaqda qarşıda duran cari məsələlər, maddi-texniki bazanın genişləndirilməsi, təhsil haqqı və ümumi maliyyə məsələləri, universitetin gələcək inkişaf strategiyası ətraflı şəkildə müzakirə edildi.

## FOUNDERS MEETING AT EAST-WEST TEACHING UNIVERSITY

On November 21, a meeting of founders was held at East-West Teaching University. At the meeting, the current issues, the expansion of the material and technical base, tuition fees and general financial issues, the future development strategy of the university were discussed in detail.



## GÜRCÜSTAN MİLLİ ELMLƏR AKADEMİYASINDA HAMLET İSAXANLIYA AKADEMİK DİPLOMUNUN TƏQDİM OLUNMASI

Noyabrın 21-də Gürcüstan Milli Elmlər Akademiyasında görüş baş tutdu. GMEA-nın prezidenti Giorgi Kvesitadze`nin rəhbərliyi ilə keçirilən Rəyasət Heyətinin iclasında Hamlet İsaxanlıya GMEA-nın həqiqi üzvü seçilməsi ilə bağlı rəsmi diplom təqdim edildi.

GMEA-nın prezidenti Giorgi Kvesitadze-`nin dediklərindən: "Deyirlər ki, son illərdə həyatımızda yaxşı heç nə baş vermir. Səhvdir, yalandır, baş verir, həm də çox gözəl hadisələr baş verir. Bu gün o hadisələrdən biri baş verir. Yalnız Azərbaycanda, Gürcüstanda deyil, bütün dünyada tanınan, böyük elm adamı və böyük azərbaycanlı, mənim çox sevdiyim və xüsusi hörmət bəslədiyim Hamlet İsaxanlı aramızdadır. Onu Gürcüstan Milli Elmlər Akademiyasının akademiki kimi burda gördüyüm üçün çox qürurluyam. Hamletin GMEA-ya üzv seçilməsi şəxsən mənim üçün və akademiyamız üçün şərəfdir."

## PRESENTATION OF DIPLOMA OF ACADEMICIAN TO HAMLET ISAKHANLI AT NATIONAL ACADEMY OF SCIENCES OF GEORGIA

On November 21, a meeting was held at the National Academy of Sciences of Georgia. Hamlet Isakhanli was presented with an official diploma regarding his election as a full member of GNAS at the meeting of the Presidium chaired by GNAS President Giorgi Kvesitadze.

Few sentences from the speech of Giorgi Kvesitadze, President of GNAS: "They say that nothing good has happened in our lives in recent years. But this is not the case, it's happening. One of those events is happening today. Among us is Hamlet Isakhanli, who is known not only in Azerbaijan and Georgia, but all over the world, a great scientist and a great Azerbaijani, whom I love and have special respect for. I am very proud to see him here as an academician of the Georgian National Academy of Sciences. Hamlet's election as a member of GNAS is an honor for me personally and for our academy."

Təbrikləri qəbul edən Hamlet İsaxanlı GMEA-nın Rəyasət Heyətinin bir iclasının Bakıda keçirilməsini təklif etdi və qonaqları Azərbaycana dəvət etdi. Bu dəvət akademiyanın Rəyasət Heyətinin üzvləri tərəfindən məmnuniyyətlə qarşılandı.

Rəyasət heyətinin iclasından sonra Tbilisinin ən mənzərəli yerlərindən birində Hamlet İsaxanlının şərəfinə ziyafət verildi.

Accepting the congratulations, Hamlet Isakhanli proposed to hold a meeting of the Presidium of GNAS in Baku and invited the guests to Azerbaijan. This invitation was welcomed by the members of the Presidium of the Academy.

After the meeting of the presidium, a banquet was held in honor of Hamlet Isakhanli in one of the most picturesque places of Tbilisi.



Georgian National Academy of Sciences

Diploma

of

Foreign Membership

The Georgian National Academy of Sciences

Elected

Professor

Hamlet Isaxanli

(Applied Mechanics)

As

Foreign Member of the Academy

and

in Testimony thereof have affixed their Seal to this

Certificate

and caused the same to be duly attested,

this 24th of December in the year 2021.

Giorgi Kvesitadze

President

Tbilisi, Georgia






## "ABDULLA MÜƏLLİM XATİRƏLƏRDƏ" KİTABI ÇAP OLUNUB

Xəzər Universiteti Nəşriyyatında "Abdulla müəllim xatirələrdə" adlı kitab nəfis şəkildə çap olunmuşdur. Kitaba gəncliyindən ömrünün sonuna qədər Gürcüstanın Qarayazı mahalında, Kosalı orta məktəbində riyaziyyat müəllimi işləmiş və el arasında böyük hörmət qazanmış Abdulla İsayev haqqında onun həmkarları, tələbələri, bölgənin qabaqcıl insanları, eləcə də Kosalı orta məktəbinin məzunları olan bir sıra elm və sənət adamlarının xatirələri daxil edilmişdir.

Kitabın tərtibçisi və "Tərtibçidən" adlı ön sözün müəllifi Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru, filologiya elmləri doktoru İsaxan İsaxanlıdır.

Kitab Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik (Gürcüstan Milli Elmlər Akademiyası) Hamlet İsaxanlının "Atam və müəllimim - Abdulla müəllim!" adlı iri həcmli xatirəsi ilə başlanır. Kitabın redaktoru da Hamlet İsaxanlıdır.

"Abdulla müəllimin həyatı və fəaliyyəti şəkillərdə" bölməsində Abdulla İsayevi ailə həyatında, hərbi xidmətdə, həmkarları ilə, qohum-əqrəba və dost-tanışlarla əks etdirən 40-dək foto oxuculara təqdim olunur.

Ümumilikdə 22 nəfərin xatirəsi toplanmış "Abdulla müəllim xatirələrdə" bölməsində onun qayğıkeş ailə başçısı, təcrübəli pedaqoq, xeyirxah, sözübütöv, cəsarətli, dürüst el adamı kimi şəxsiyyəti canlandırılır.

Kitab həm mətn, həm də tərtibat cəhətdən yüksək səviyyədə və zövqlə hazırlanmış gözəl xatirə ədəbiyyatı nümunəsidir.

## THE BOOK "ABDULLAH MÜƏLLIM IN MEMORIES" PUBLISHED

Khazar University Publishing House has elegantly published the book titled "Abdullah Müəllim in memories".

The book includes the memories of Abdullah Isayev, who worked as a math teacher in Kosali secondary school from his youth until the end of his life and gained great respect among the people, by his colleagues, students, leading people of the region, as well as a number of scientists and artists who are graduates of Kosali secondary school.

The compiler of the book and the author of the foreword "From compiler" is Isakhan Isakhanli, vice-rector for Administration and Student Affairs of Khazar University, doctor of philology.

The book begins with a large-volume memoir by founder of Khazar University, chairman of the Board of Directors and Trustees, doctor of Physics and Mathematics, professor, academician (Georgia National Academy of Sciences) Hamlet Isakhanli entitled "My father and my teacher – Mr. Abdulla!". The editor of the book is Hamlet Isakhanli.

In the "Life and activities of Abdullah Müəllim in memories in photos" section, about 40 photos of Abdulla Isayev in his family life, military service, with colleagues, relatives and friends are presented to the readers.

In the section "Abdullah Müəllim in memories in memories", which includes the memories of 22 people on his personality of a caring head of the family, an experienced teacher, a kind, honest, courageous and honest person is reflected.

The book is an example of a beautiful memorial literature, made with taste and at a high level, both in terms of text and design.

# Əzizimiz Hamlet!

Nəslin nüfuzlu, qayğıkeş, çoxşaxəli irs daşıyıcısı Abdulla İsaxan oğlunun xatirəsinin yad edilməsi ilə əlaqədar göstərdiyin diqqət və qayğını çox yüksək qiymətləndiririk. Yazdığın xatirələrində atalı günlərindəki sevincin, hamımızın sevincidir. O günlər, sənin kimi eləcə də hamımızın ömrünün mənasıdır.

Bir nəslin irsinin daşıyıcısı olaraq ulu babamıza, baba-nənəmizə – hamımızın baba-nənəsi; atamıza, anamıza – hamımızın ata-anası; qardaş-bacımıza – hamımızın qardaş - bacısı; övladlarımıza, nəvələrimizə – hamımızın övladı, nəvəsi kimi baxır, onların nüfuzu, səxavəti, zəkası, qəhrəmanlıqları, cəmiyyətdə tutduqları yer, bilik, bacarıqları ilə fəxr edib, sevincli günlərinə sevinib, qəmli günlərinə kədərlənmişik.

Xatirələrini 24 yaşın olan ildə tamamlamağın, sonrakı xatirələrin atanı aramsız yuxuda görməyinə bağlandığından və onun qarşısında olan borcunu verə bilməməyindən çəkdiyin əzab və üzüntüləri oxuduqdan sonra bunlar həm də bizim əzab və üzüntülərə çevrildi. Qəhərləndik.

Hədislərdə belə deyilir ki, Allah dərgahında olanlar öz əzizlərinin yuxusunda onlar daim anıldıqda görünürlər. Bu bizlərə sənin yanğılarından, əzizimizin necə anılmasından xəbər verir. Anılanlar əzizlərinin yuxusunda onların xoş günlərində görünmürlər. Onlar baş verəcək çətinliyə darıxmamaq, ötüb keçəcəyi müjdəsini vermək üçün, əzizlərini qorumaq üçün yuxuda görünürlər.

Xatirələrdə ata borcunu verə bilmiş olsaydım deyərək darıxırsan. Ata Allah dərgahındadır, ona anılmaqdan başqa heç nə lazım deyil. O yalnız onu anana, xatırlayana əzizini qorumaq, darıxmamaq üçün yuxuda görünür.

Ulu Tanrıdan rəhmətə gedən bütün əzizlərimizə, xatirəsini yad etdiyimiz atamıza rəhmətlər diləyirik.

Əziz qardaşımız! Sənə can sağlığı, uzun ömür, işində uğurlar arzulayırıq.

***Hacıbayramlı nəslinin davamçıları adından,***

*hörmətlə*

**qardaşın Fəxrəddin**

*25.11.2022-ci il*



## "XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ SEMİNARDA

## KHAZAR UNIVERSITY STAFF MEMBER AT INTERNATIONAL SEMINAR

Noyabrın 15-16-da Həyat elmləri departamentinin baytarlıq təbabəti üzrə koordinatoru, b.ü.f.d.Ayaz Məmmədov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ikigünlük onlayn beynəlxalq seminarına qatılıb.

30-a yaxın ölkənin nümayəndələrinin iştirakı ilə keçən "Ev Heyvanlarının Müxtəlifliyi üzrə Qlobal Milli Koordinatorların Seminarı"nda (Global National Coordinators' Workshop on DAD-IS) A.Məmmədov heyvan genetik ehtiyatları barədə məlumatların DAD-IS saytına yerləşdirilməsi, məlumatların eksportu, cinslərin risk statusları və s. məsələlərin müzakirəsində fəal iştirak etmişdir.

On November 15-16, Ayaz Mammadov, PhD in biology, coordinator of veterinary medicine of the Department of Life Sciences, participated in a two-day online international seminar of the UN Food and Agriculture Organization.

At the "Global National Coordinators' Workshop on DAD-IS " held with the participation of representatives of about 30 countries, A.Mammadov took an active part in the discussion of placing information on animal genetic resources on the DAD-IS website, exporting information, risk statuses of breeds and other issues.

## ƏMƏKDAŞLAR "TƏHSİLDƏ VƏ İNKİŞAFDA BƏRABƏRLİK" TƏDBİRİNDƏ

Noyabrın 18-də Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşları Mələk Kərimova və Xanım Rzayeva Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin birgə rəhbərliyi ilə əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin aparılması çərçivəsində keçirilən "Təhsildə və inkişafda bərabərlik" mövzusunda tədbirdə iştirak ediblər.

Tədbir Əlilliyi Olan Şəxslərin Hüquqları Sahəsində Dövlət Monitorinqi Komissiyasının üzvləri ilə yanaşı, qeyri-hökumət təşkilatları, blogerlər, universitet və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilib.

Görüşdə əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi çərçivəsində "Təhsil sistemində müyəssərlik və inklüzivlik imkanları" və "Əlilliyi olan uşaqların hərtərəfli inkişafı, istedad, bilik və bacarıqlarını realizə etmələri üçün mövcud imkanlar və çətinliklər" mövzularında iki blokdan ibarət olmaqla müzakirələr təşkil edilib.

Görüşdə DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqi haqqında məlumat verdi. Sonra DOST Agentliyinin MİET departamentinin müdiri Şahin Zülfüqarov əlilliyi olan şəxslərlə bağlı müyəssərlik və inkluzivlik mövzusunda müzakirələr apararaq, görülən tədbirlər haqqında məlumat verdi. Universitetlərdə əlilliyi olan şəxslərə uyğun şəraitin yaradılmasının zəruriliyi və görüləcək işlər haqqında yeni təkliflər irəli sürüldü. Psixologiya departamentinin koordinatoru Mələk Kərimova Xəzər Universitetində "Əlilliyi olan tələbələrin ali məktəblərə inteqrasiyası" layihəsi və layihənin davamı olaraq keçirilən müxtəlif tədbirlər haqqında məlumat verdi.

## STAFF MEMBERS AT "EQUALITY IN EDUCATION AND DEVELOPMENT" EVENT

On November 18, Melek Karimova and Khanim Rzayeva, employees of Khazar University's Department of Psychology, participated at the event on "Equality in education and development" held within the framework of state monitoring in the field of the rights of persons with disabilities in the state monitoring of the rights of persons with disabilities under the joint leadership of the Ministry of Labor and Social Protection of the Republic of Azerbaijan and the Agency for Sustainable and Operative Social Security (DOST).

The event was held with the participation of non-governmental organizations, bloggers, university and public representatives, along with members of the State Monitoring Commission in the Field of the Rights of Persons with Disabilities.

At the meeting, Chairman of the Board of DOST Agency, Farid Mammadov, gave information about state monitoring in the field of rights of persons with disabilities. Then, the head of the

MIET department of the DOST Agency, Shahin Zulfugarov, held discussions on accessibility and inclusiveness for people with disabilities, and gave information about the measures taken. New proposals were put forward about the necessity of creating suitable conditions for persons with disabilities in universities and the work to be done. Melak Karimova, coordinator of the Psychology department, gave information about the "Integration of students with disabilities into higher education" project at Khazar University and various events held as a continuation of the project.

## NAİLƏXANIM TƏQAÜDÜNÜ ALAN TƏLƏBƏLƏR "QADINLAR, SÜLH VƏ TƏHLÜKƏSİZLİK" ADLI KONFRANSDA

## NAILEKHANIM SCHOLARSHIP STUDENTS AT "WOMEN, PEACE AND SECURITY" CONFERENCE

Noyabrın 22-də Latviyanın Azərbaycandakı səfirliyinin dəvəti ilə Nailəxanım Fondunun təsis etdiyi Nailəxanım təqaüdünü alan tələbələr Claudia Palazzo (İtaliya) və Brilliant Windy Khairunnisa (İndoneziya) "Qadınlar, Sülh və Təhlükəsizlik" mövzusunda "Dayanıqlı Gələcək üçün Qadınlar" adlı konfransda iştirak etmişlər.

On November 22, at the invitation of the Embassy of Latvia in Azerbaijan, Nailekhanim scholarship students Claudia Palazzo (Italy) and Brilliant Windy Khairunnisa (Indonesia) founded by the Nailekhanim Foundation participated in the "Women for a Sustainable Future" conference on "Women, Peace and Security".



Konfrans Azərbaycan Xarici İşlər Nazirliyi, Latviyanın Azərbaycandakı səfirliyi, NATO, BMT-nin Azərbaycandakı nümayəndəliyi və Böyük Britaniyanın Bakıdakı səfirliyinin birgə təşkilatçılığı ilə ADA Universitetində keçirilib. Konfransda bu sahədə QHT-lərin effektivliyi, müsbət beynəlxalq təcrübələr kimi qlobal əhəmiyyət kəsb edən bir sıra mühüm mövzular müzakirə edilib.

Konfransda Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora da iştirak etmişdir.

The conference was held at ADA University under the joint organization of the Ministry of Foreign Affairs of Azerbaijan, the Embassy of Latvia in Azerbaijan, the representative office of NATO and the United Nations in Azerbaijan and the Embassy of Great Britain in Baku. At the conference, a number of important topics of global importance, such as the effectiveness of NGOs in this field, and positive international practices, were discussed.

Vlad Vernygora, vice-rector for International Relations of Khazar University, also participated in the conference.




# "XƏZƏR"İN ƏMƏKDAŞLARI LATVİYA RESPUBLİKASININ 104-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT OFFICIAL RECEPTION DEDICATED TO THE 104TH ANNIVERSARY OF THE REPUBLIC OF LATVIA

Noyabrın 23-də Latviya Respublikasının 104-cü ildönümünə həsr olunmuş rəsmi qəbul keçirilib.

Latviyanın Azərbaycandakı səfirliyinin dəvəti ilə Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva iştirak etmişlər.

Latviyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Vija Buşa çıxışında deyib ki, "Latviya dövləti qurulan vaxtda olduğu kimi, latış xalqı bir çox çətinliklərə addım-addım qalib gəlmiş və dövlətimizi, dövlətçiliyimizi inkişaf etdirməyə müvəffəq olmuşdur. Məlum olduğu kimi, Latviya hər zaman beynəlxalq hüquqa uyğun olaraq hər bir ölkənin suverenliyini və ərazi bütövlüyünü tanıyır. Müstəqilliyimizi bərpa etdikdən bəri, Latviya və Azərbaycan arasında dostluq və konstruktiv əlaqələr qurulub. Qeyd edək ki, Latviya Səfirliyi 2021-2024-cü illər üçün Azərbaycanda NATO-nun əlaqələndirici səfirliyi vəzifəsini yerinə yetirir. Səfirlik, eyni zamanda, 2023-cü ilin fevral ayına kimi Azərbaycanda Avropa İttifaqı Milli Mədəniyyətlər İnstitutları Qrupuna (EUNIC) prezidentlik funksiyasını da həyata keçirir.

An official reception dedicated to the 104th anniversary of the Republic of Latvia was held on November 23.

Vlad Vernygora, vice-rector for International Relations of Khazar University, and Fatima Valiyeva, coordinator of the same office, participated at the invitation of the Embassy of Latvia in Azerbaijan.

Vija Busha, charge d'affaires of the Latvian embassy in Azerbaijan, said in her speech that "when the Latvian state was founded, the Latvian people overcame many difficulties step by step and succeeded in developing our state and statehood. As is known, Latvia always recognizes the sovereignty and territorial integrity of every country in accordance with international law.Since the restoration of our independence, friendly and constructive relations have been established between Latvia and Azerbaijan "Note that the Embassy of Latvia performs the duties of the coordinating embassy of NATO in Azerbaijan for the years 2021-2024. At the same time, the embassy performs the function of the presidency of the European Union National Institutes for Culture (EUNIC) in Azerbaijan until February 2023.

# "ALİ TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI" ÜZRƏ TƏDBİR

Noyabrın 22-24-də Bakı Biznes Universitetində Erasmus+ proqramı çərçivəsində keçirilən "Ali Təhsildə Keyfiyyət Təminatı" üzrə tədbirdə Xəzər Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin assistenti Kəmalə Mustafayeva iştirak etmişdir.

Tədbirin məqsədi Bakı Biznes Universitetinin tərəfdaşı olan xarici ölkələrin ali təhsil müəssisələrinin, o cümlədən İngiltərə, İsveç, İspaniya, İtaliya, Türkiyə və Polşa universitetlərində keyfiyyət təminatında mövcud olan təcrübələrin Azərbaycanın ali təhsil müəssisələrinə ötürülməsidir. Bununla yanaşı, "Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin İnkişaf Etdirilməsi" ERASMUS+KA2 layihəsinin davamlılığının təmin edilməsi və tərəfdaş ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin təkmilləşdirilməsi üçün tədqiqat qrupunun formalaşdırılması da əsas məqsədlərdən biridir.

Tədbirdə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri, Avropanın 6 qabaqcıl ölkəsindən 7 universitetin - İngiltərənin Middlesex Universitetinin, İspaniyanın Jaen Universitetinin, İtaliyanın Tuscia Universitetinin, Türkiyənin Dokuz Eylül Universitetinin, Polşanın WSG Universitetinin və Katowice İqtisadiyyat Universitetinin nümayəndələri, Azərbaycanın 33 ali təhsil müəssisəsindən 70-ə yaxın nümayəndə, o cümlədən rektorlar, prorektorlar və keyfiyyət təminatı üzrə məsul şəxslər iştirak ediblər.

Tədbirin ilk günündə "Keyfiyyət təminatının ali təhsildə rolu", "Jaen Universitetinin keyfiyyət təminatı sistemi", "İspaniya planlaşdırma və qiymətləndirmə sistemi", "Tuscia Universitetində daxili keyfiyyət təminatı sisteminin qurulması və icrası", "Keyfiyyətin təmin olunmasında özünüqiymətləndirmə fəaliyyətinin mahiyyəti və faydaları", "Polşa universitetləri təcrübəsində tədrisin keyfiyyətinin təmin edilməsi mexanizmləri və tədris prosesinin qurulması" mövzularında təqdimatlar keçirilib.

Təlimlərin növbəti günlərində isə xarici partnyorlar tərəfindən təhsil proqramı üzrə komitələrin funksiyaları, pofessor-müəllim heyətinin qiymətləndirilməsi, dekanların keyfiyyət təminatında rolu, strateji planlama, daxili audit, məmnunluq sorğularının keçirilməsi kimi mühüm əhəmiyyət kəsb edən istiqamətlərdə seminarlar və qrup işləri həyata keçirilməklə təcrübə mübadilələri aparılıb.

# EVENT ON "QUALITY ASSURANCE IN HIGHER EDUCATION"

On November 22-24, Kamala Mustafayeva, assistant of the Quality Assurance Center of Khazar University, participated in the event on "Quality Assurance in Higher Education" held within the framework of the Erasmus+ program at Baku Business University.

The purpose of the event is to transfer the quality assurance practices of the higher educational institutions of foreign countries that are partners of Baku Business University, including the universities of England, Sweden, Spain, Italy, Turkey and Poland, to the higher educational institutions of Azerbaijan. In addition, one of the main goals is to ensure the sustainability of the ERASMUS+KA2 project "Development of Quality Assurance Centers in Azerbaijan Universities" and to form a research group to improve internal quality assurance systems in partner higher education institutions. At the event, the Chairman of the Board of the Agency for Quality Assurance in Education, representatives of 7 universities from 6 leading European countries - England's Middlesex University, Spain's Jaen University, Italy's Tuscia University, Turkey's Dokuz Eylul University, Poland's WSG University and Katowice University of Economics, 70 of Azerbaijan's 33 higher education institutions close representatives, including rectors, vice-rectors and persons responsible for quality assurance participated.

On the first day of the event, presentations were held on the topics "The role of quality assurance in higher education", "The quality assurance system of the University of Jaen", "The Spanish planning and evaluation system", "The establishment and implementation of the internal quality assurance system at the University of Tuscia", "The essence and benefits of self-assessment activities in quality assurance", "Mechanisms for ensuring the quality of teaching and establishing the teaching process in the experience of Polish universities".

In the following days of the training, foreign partners conducted seminars and group work in such important areas as the functions of the committees on the educational program, the evaluation of the professor-teaching staff, the role of deans in quality assurance, strategic planning, internal audit, and conducting satisfaction surveys.

## TƏLƏBƏLƏR BAYTARLIQ ELMİ-TƏDQİQAT İNSTİTUTUNDA

Noyabrın 24-də Xəzər Universiteti Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə koordinatoru b.ü.f.d. Ayaz Məmmədovun təşkilatçılığı ilə Baytarlıq təbabəti üzrə təhsil alan 2-ci kurs tələbələrinin bir qrupu Baytarlıq Elmi-Tədqiqat İnstitutu (BETİ) və onun nəzdindəki Baytarlıq klinikasında oldular.

Səfər zamanı institutun direktoru Siyalə Rüstəmova tələbələrlə görüşərək, praktiki işlərdə iştirak etmələri üçün şəraitin yaradılacağını vurğuladı və onlara uğurlar dilədi.

Sonra BETİ əməkdaşları tərəfindən tələbələrə instititutun laboratoriyalarının elmi-tədqiqat istiqamətləri, cihaz və avadanlıqların iş prinsipləri, kitabxanası barədə geniş məlumat verdilər.

Tələbələr, həmçinin, Baytarlıq klinikasında heyvanların müayinəsi, qanın ümumi və biokimyəvi analizi, xəstəliklərin diaqnostikası, müalicəsi və s. işlərlə də yaxından tanış oldular.

## STUDENTS AT VETERINARY RESEARCH INSTITUTE

On November 24, a group of 2nd-year students majoring in Veterinary medicine visited the Scientific Research Veterinary Institute and the Veterinary clinic attached to it with the coordination of doctor of Biology Ayaz Mammadov, coordinator of Veterinary Medicine of Khazar University Life Sciences Department.

During the visit, the director of the institute, Siyala Rustamova, met with the students, emphasized that conditions will be created for them to participate in practical work and wished them success.

Then, the employees of Scientific Research Veterinary Institute gave the students extensive information about the scientific-research directions of the institute's laboratories, the working principles of devices and equipment, and the library.

The students also got to know the examination of animals, general and biochemical analysis of blood, diagnosis and treatment of diseases and other issues in the Veterinary clinic.





# "GƏLƏCƏYİNİ QUR!" LAYİHƏSİNİN İŞTİRAKÇILARI XƏZƏR UNİVERSİTETİNDƏ

# "BUILD YOUR FUTURE!" PROJECT PARTICIPANTS AT KHAZAR UNIVERSITY

Noyabrın 27-də Xəzər Universitetinin Neftçilər kampusunda "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin elm və məsuliyyət dəyərlərinə həsr olunmuş tədbiri baş tutdu.

Tədbir universitetin rektoru İradə Xəlilovanın çıxışı və universitet haqqında təqdimat ilə başladı. Xəzər Universitetində təhsil alan "Gələcəyini Qur!" layihəsinin məzunları abituriyentlərlə universitet və tələbəlik həyatı haqqında öz təəssüratlarını bölüşdülər.

Tədbir Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlının çıxışı ilə davam etdi. O, Xəzər Universitetinin qurulmasından, elmin insan həyatında rolundan və hər insanın vətəni qarşısında olan məsuliyyətindən söz açdı və layihənin kitabxanasına müəllifi olduğu bir neçə kitab hədiyyə etdi.

Tədbirdə spiker qismində, həmçinin təlimçi və yazıçı Coşqun Kərimov və insan resursları üzrə mütəxəssis Xəqani Səfərov çıxış etdilər. İştirakçılar üçün universitet turu təşkil olundu.

2014-cü ildən Elm və Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin əsas məqsədi gənclərin ali təhsilə yiyələnməsinə dəstək, töhfə vermək və bununla Azərbaycan cəmiyyətinə yüksək intellekt və etik dəyərlərə malik sağlam düşüncəli gənclər qazandırmaqdır.

Layihə haqqında ətraflı məlumat *www.geleceyiniqur.az* veb-saytından əldə oluna bilər.

On November 27, the event of "Build your future!" Youth Support Project dedicated to the values of science and responsibility took place at the Neftchilar campus of Khazar University.

The event started with the speech of the rector of the University, Irada Khalilova, and a presentation about the university. Graduates of the project "Build your future!" who study at Khazar University, shared their impressions about the university and student life with the enrolees.

The event continued with the speech of professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees. He spoke about the establishment of Khazar University, the role of science in human life, and the responsibility of every person to his homeland, and presented several books authored by him to the library of the project.

Trainer and writer Joshgun Karimov and human resources specialist Khagani Safarov also spoke at the event. A university tour was organized for the participants.

Since 2014, "Build Your Future!" has been operating with the support of the Ministry of Science and Education and the sponsorship of a number of companies. The main goal of the Youth Support Project is to back and contribute to the acquisition of higher education by young people and thereby bring healthy young people with high intelligence and ethical values to the society of Azerbaijan.

Detailed information about the project can be obtained from the website *www.geleceyiniqur.az*.



# "GƏLƏCƏYİN ENERJİ QAYNAĞI: LİTİUM VƏ AZƏRBAYCANDAKI LİTİUM MİNERALLARININ ARAŞDIRILMASI" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "FUTURE ENERGY SOURCE: LITHIUM AND RESEARCH OF LITHIUM MINERALS IN AZERBAIJAN"

Noyabrın 29-da Fizika və elektronika departamentində "Gələcəyin enerji qaynağı: Litium və Azərbaycandakı litium minerallarının araşdırılması" mövzusunda elmi seminar keçirildi. Seminarda Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun əməkdaşı, fizika üzrə fəlsəfə doktoru Əhməd Asimov çıxış etdi. O, çıxışında alternativ enerji mənbələri kimi regenerativ - bərpa olunan enerjilərdən istifadənin ekoloji cəhətdən daha səmərəli olduğunu, onların mənbələrinin araşdırılması, onlardan istifadə edilməsi yolları, təbiətə təsirləri və s. kimi məsələlərin hazırkı dövrdə aktuallığını nəzərə çatdırdı. Digər tərəfdən, hal - hazırda enerji qaynağı kimi litium əsaslı batareyalardan da istifadə olunmasının vacibliyini qeyd etdi.

Seminarda Fizika və elektronika, Neft mühəndisliyi və Mexanika mühəndisliyi departamentlərinin müəllim və tələbələri iştirak etdilər və elmi müzakirə aparıldı.

On November 29, a scientific seminar on "Future energy source: lithium and research of lithium minerals in Azerbaijan" was held at the Department of Physics and Electronics. Ahmed Asimov, an employee of the Physics Institute of the Ministry of Science and Education, Ph.D. in physics, spoke at the seminar. In his speech, he pointed out that the use of renewable energies as alternative energy sources is more ecologically efficient, and highlighted the relevance of issues such as researching their sources, ways of using them, and their effects on nature et c. On the other hand, he noted the importance of using lithium-based batteries as an energy source.

The seminar was attended by faculty members and students of Physics and electronics, Petroleum engineering and Mechanical engineering departments, and a scientific discussion was held.

# "GƏLƏCƏK ÜÇÜN BACARIQLAR" LAYİHƏSİNİN "XƏZƏR"DƏ İNFOSESSİYASI



Noyabrın 30-da Xəzər Universitetində "Gələcək üçün Bacarıqlar" layihəsinin Tusi (2C) inkubasiya proqramının infosessiyası keçirilib. Məlumat sessiyasında layihənin meneceri Zinəddin Babayev, Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, "Gələcək üçün Bacarıqlar" layihəsinin Xəzər Universiteti üzrə mentorları Fəridə Tatardar, Mehdi Kiyasatfar, Lalə Atamova, Kəmalə Mustafayeva, Humay Hüseynova, universitet əməkdaşları və tələbələr iştirak edib.

Fəxrəndə Əfəndiyeva innovasiya ekosisteminin əhəmiyyətindən, tələbələrin ideyalarını gerçəkləşdirmə fürsətlərindən danışıb.

İnfosessiyada layihənin meneceri Zinəddin Babayev tələbələrə Tusi (2C) inkubasiya proqramı haqqında ətraflı məlumat verib, qeydiyyat prosesi və tələbələri qarşıda gözləyən mərhələlər barədə danışıb.

Qeyd edək ki, Tusi (2C) inkubasiya proqramı "Gələcək üçün Bacarıqlar" layihəsinin ikinci komponentidir. İnkubasiya proqramının əsas məqsədi ölkədə innovasiya fəaliyyətinin davamlılığının təmin edilməsi, innovativ ideyaların inkişaf etdirilməsi üçün tələbələrin innovasiya və startap üzrə biliklərinin inkişafıdır. Ümumilikdə 3 aylıq dövrü əhatə edən proqramda bir sıra təlimlər, xarici və yerli ekspert görüşləri, layihələrin işlənilməsi, sahələri üzrə səfərlərin, müxtəlif "camp"lər və sonda "Pitch Day"in keçirilməsi planlaşdırılır.

# INFORMATION SESSION OF "SKILLS FOR THE FUTURE" PROJECT AT KHAZAR UNIVERSITY

On November 30, an info session of the Tusi (2C) incubation program of the "Skills for the Future" project was held at Khazar University.

Project manager Zinaddin Babayev, Fakhranda Efendiyeva, dean of the School of Science and Engineering, Khazar University, Khazar University mentors of the "Skills for the Future" project, Farida Tatardar, Mehdi Kiyasatfar, Lala Atamova, Kamala Mustafayeva, Humay Huseynova, university employees and students participated in the information session.

Fakhranda Efendiyeva spoke about the importance of the innovation ecosystem and opportunities for students to realize their ideas. In the information session, the project manager Zinaddin Babayev gave the students detailed information about the Tusi (2C) incubation program, talked about the registration process and the stages ahead.

Note that the Tusi (2C) incubation program is the second component of the "Skills for the Future" project. The main goal of the incubation program is to ensure the continuity of innovation activities in the country, to develop the knowledge of students on innovation and start-ups in order to develop innovative ideas. A series of trainings, foreign and local expert meetings, project development, field visits, various "camps" and "Pitch Day" are planned in the program covering a period of 3 months.



SAINT LOUIS UNIVERSITY

# İSVEÇ KƏND TƏSƏRRÜFATI ELMLƏRİ UNİVERSİTETİ İLƏ ONLAYN GÖRÜŞ

Noyabrın 10-da Xəzər Universiteti ilə İsveç Kənd Təsərrüfatı Elmləri Universiteti (SLU) arasında onlayn görüş keçirildi.

Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Həyat elmləri departamentinin baytarlıq üzrə koordinatoru b.ü.f.d. Ayaz Məmmədov və departamentin dosenti, b.ü.f.d. Cavid Ocaqi, SLU-dan Molekulyar Elmlər Bölməsinin dosenti Qalia Zamaratskaya və SLU-nun "Aqronomiya – Qida Elmi" sahəsi üzrə tələbəsi Simon Tobias iştirak etdilər.

Qalia Zamaratskaya HanimSpac layihəsinin əsas məqamları barədə qısa təqdimat etdi. Sonra İradə Xəlilova Xəzər Universitetinin strukturu, elmi fəaliyyəti, beynəlxalq əməkdaşlıq və.s. barədə tədbir iştirakçılarını məlumatlandırdı.

A.Məmmədov isə Xəzər Universitetinin rektorunun rəhbərliyi altında Həyat elmləri departamentinin əməkdaşları tərəfindən Azərbaycanın müxtəlif regionlarında fermer və istehlakçılar arasında heyvan rifahı ilə əlaqədar apardıqları sorğunun nəticələrini iştirakçıların diqqətinə çatdırdı.

# ONLINE MEETING WITH SWEDISH UNIVERSITY OF AGRICULTURAL SCIENCES

On November 10, an online meeting was held between Khazar University and the Swedish University of Agricultural Sciences (SLU).

The rector of Khazar University, associate professor Irada Khalilova, the veterinary coordinator of the Department of Life Sciences, Dr. Ayaz Mammadov, and the associate professor of the department, Javid Ojagi, the associate professor of the Department of Molecular Sciences from SLU, Galia Zamaratskaya, and the student of "Agronomy - Food Science" from SLU, Simon Tobias attended the meeting.

Galia Zamaratskaya made a short presentation about the main points of the HanimSpac project. Then Irada Khalilova informed the event participants about the structure, scientific activities, and international cooperation et c. of Khazar University.

A.Mammadov brought to the attention of the participants the results of the survey conducted by the employees of the Department of Life Sciences under the leadership of the rector of Khazar University regarding animal welfare among farmers and consumers in different regions of Azerbaijan.

After discussions, the results of the survey conducted by Khazar University on animal welfare were analyzed statistically, and it was decided to prepare an international article together with SLU.



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN KOORDİNATORU DUMLUPİNAR UNİVERSİTETİNDƏ

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Dr. Milana Abbasova noyabrın 14-18-də Erasmus+ Personal Mobility (KA107) layihəsi çərçivəsində Türkiyənin Kütahya şəhərində Dumlupınar Universitetində olmuşdur.

Səfər zamanı o, Dumlupinar Universiteti İngilis dili departamentinin müdiri Prof. Ayhan Karaman və digər əməkdaşlarla görüşlər keçirib. Görüşlərdə gələcək əməkdaşlıq, ingilis dilinin tədrisini inkişaf etdirmək və təlim prosesini daha maraqlı etmək imkanları müzakirə olunub, həmkarlar bu barədə öz fikir və təcrübələrini bölüşüblər. Proqram çərçivəsində Milana Abbasova səkkiz saatlıq mühazirə söyləmiş və bir neçə dərsdə dinləyici kimi iştirak etmişdir.

Proqramın sonunda Milana Abbasova fakültənin rəhbəri və professor-müəllim heyəti ilə yekun görüşdə sertifikatla təltif olunub.

## STAFF MEMBER OF THE ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT VISITS DUMLUPINAR UNIVERSITY

Dr Milana Abbasova the acting head of the department of English Language and Literature of Khazar University visited Dumlupinar University, Kutahya, Turkiye on November 14-18, being nominated for the Erasmus+ Staff Mobility (KA107) project.

During her fruitful visit, she had a meeting with the whole staff and the head of the Department of English at Dumlupinar University. They discussed future possible collaborations and shared their views and experiences on how to develop English language learning and make the learning process more interesting. As a part of the program, Dr Milana Abbasova lectured for eight hours and participated in several classes as a listener.

At the end of the program, Dr Milana Abbasova was awarded a certificate and had a final meeting with the faculty members and head.




## *UniLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İSPANİYANIN UPF BARSELONA İDARƏETMƏ MƏKTƏBİNƏ SƏFƏR

Noyabrın 14-18-də Xəzər Universitetinin əməkdaşları UniLab layihəsi çərçivəsində İspaniyanın UPF Barselona İdarəetmə Məktəbində oldular. Səfərdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Karyera İnkişaf Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə, İnkişaf Ofisinin layihə rəhbəri Jalə Rzayeva və universitetin İqtisadiyyat və menecment fakültəsinin Maliyyə ixtisası üzrə təhsil alan tələbəsi Şəfəq Qasımova iştirak ediblər. Səfər zamanı universitetin əməkdaşları UPF Barselona İdarəetmə Məktəbində görüşdə iştirak ediblər. İştirakçıları EUCEN-in icraçı direktoru Karme Royo və universitetin nümayəndələri qarşıladılar. Görüşdə layihə üzrə görülən işlər və gələcək planlar müzakirə olunub. Səfər zamanı nümayəndələr Karyera Mərkəzi və karyera platforması olan UPF Barselona İdarəetmə Məktəbi ilə tanış olublar.

Səfər zamanı Karyera İnkişaf Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə və İnkişaf ofisinin layihə rəhbəri Jalə Rzayeva təqdimatla çıxış edərək, layihə çərçivəsində universitetin "Karyera İnkişaf Ayı" və "Karyera Səfirləri" proqramları kimi gördüyü işlər barədə iştirakçılara məlumat verdilər.

## STUDY VISIT TO UPF BARCELONA SCHOOL OF MANAGEMENT IN SPAIN WITHIN *UniLab* PROJECT

On November 14-18, Khazar University staff visited the UPF Barcelona School of Management, Spain within the framework of the UniLab project. Jeyhun Mammadov, Dean of School of Economics and Management, Elnura Ahmadzada, Career Development Center coordinator, Jala Rzayeva, project manager of the Development Office, and Shafag Gasimova, a student of the university's Faculty of Economics and Management, who studied Finance, took part in the visit.

During the trip, the university staff participated in a meeting at the UPF Barcelona School of Management. The participants were welcomed by Carme Royo, EUCEN Executive director and representatives of the university. The work done on the project and future plans were discussed at the meeting. During the visit, the representatives got acquainted with the Career center and career platform UPF Barcelona School of Management. During the trip, Elnura Ahmadzadeh, the coordinator of the Career Development Center, and Jala Rzayeva, the project manager of Development office, made a presentation and informed the participants about the work done by the university within the project, such as "Career Development Month" and "Career Ambassadors" programs.

# PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ONLAYN GÖRÜŞLƏR

PICASP
Erasmus + Project

# ONLINE MEETINGS WITHIN THE FRAMEWORK OF PICASP PROJECT

Noyabrın 17-18-də Xəzər Universitetinin tərəfdaş universitet olduğu və Ud'A Universiteti (Università degli Studi G. d'Annunzio di Chieti-Pescara) tərəfindən koordinasiya edilən "Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kursları"- PICASP (617540-EPP-1-2020-1-IT-EPPKA2-CBHE-JP) adlı layihə çərçivəsində onlayn görüşlər keçirilib.

Noyabrın 17-də keçirilən görüşdə Vilnüs Gediminas Texniki Universitetinin professoru Arturas Kaklauskas, Layihənin koordinatoru, Bolonya Biznes Menecementi Universitetinin professoru Massimo Bianchi, Xəzər Universitetindən isə İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Keyfiyyətə Təminat Mərkəzinin direktoru Lyudmila Sotova, İqtisadiyyat və menecment fakultəsinin koordinatoru Bahadır Baysal və İnkişaf ofisinin layihə meneceri Jalə Rzayeva iştirak edib. Görüşdə son zamanlar Xəzər Universitetində daxil olan texnologiyaların və proqram təminatının "MOOC" dərslər (kütləvi şəkildə açıq onlayn dərslər) üçün necə istifadə edilə biləcəyi müzakirə olunub.

Noyabrın 18-də Eramus+ PICASP layihəsi çərçivəsində bütün tərəfdaşlarla daha bir onlayn görüş baş tutub. Görüşdə layihə ilə bağlı hansı işlərin tamamlandığından, hesabatların hazırlanmasından, sənədlərin hansı formada təqdim olunmasından, avadanlıqların alınması tarixindən və tərəfdaşların layihə çərçivəsindəki görüşlərdə iştirakından danışılmışdır. Görüşdə Xəzər Universitetini İnkişaf ofisinin direktoru Raziyə İsayeva təmsil edilib.

On November 17-18, online meetings were held within the framework of the project "Pilot courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area" - PICASP (617540-EPP-1-2020-1-IT-EPPKA2-CBHE-JP) partnered by Khazar University and coordinated by Udi University (Università degli Studi G. d'Annunzio di Chieti-Pescara).

The meeting was attended by Arturas Kaklauskas, professor of Vilnius Gediminas Technical University, Massimo Bianchi, professor of Bologna University of Business Management which is the project coordinator, from Khazar University, the dean of the School of Economics and Management, Jeyhun Mammadov, the director of the Quality Assurance Center, Lyudmila Sotova, the coordinator of the School of Economics and Management, Bahadir Baysal, and the project manager of the Development Office, Jala Rzayeva. The meeting discussed how the technologies and software introduced at Khazar University can be used for "MOOC" classes (massively open online classes).

On November 18, another online meeting was held with all partners within the Eramus+ PICASP project. The meeting discussed the completion of project tasks, preparation of reports, the form of presentation of documents, dates of purchase of equipment and participation of partners in meetings within the framework of the project. Raziya Isayeva, Director of the Development Office, represented Khazar University at the meeting.



## ZONGULDAK BÜLENT ECEVİT UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Noyabrın 22-də Zonguldak Bülent Ecevit Universiteti ilə Xəzər Universiteti arasında görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva, Zonguldak Bülent Ecevit Universitetindən isə rektor Prof. İsmail Hakkı Özölçer, rektor yardımcısı Prof. Hakan Kutoğlu, Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri Murat İnce iştirak etmişlər.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova tərəfindən qonaqlara Xəzər Universiteti və fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Sonra Zonguldak Bülent Ecevit Universitetinin tanıtım çarxı izlənilmişdir.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanmış və təhsil müəssisələri arasında tərəfdaşlıq və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılmışdır.

İmzalanma mərasiminin sonunda tərəflər arasında hədiyyə mübadiləsi olmuşdur.

Qeyd edək ki, Zonguldak Bülent Ecevit Universiteti Türkiyənin Zonguldak bölgəsində əsası 1992-ci ildə qoyulmuş dövlət universitetidir.

## REPRESENTATIVES OF ZONGULDAK BULENT ECEVIT UNIVERSITY AT KHAZAR UNIVERSITY

On November 22, a meeting was held between Zonguldak Bulent Ecevit University and Khazar University.

The meeting was attended by Khazar University rector associate professor Irada Khalilova, Academic Affairs vice-rector Professor Mahammad Nuriyev, director of Public Relations and Media Alovsat Amirbeyli, Quality Assurance Center director Lyudmila Sotova, dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova, dean of the Graduate School of Economics and Business Inqilab Ahmadov, dean of the School of Economics and Management, Ceyhun Mammadov, dean of the School of Science and Engineering, Fakhranda Efendiyeva, coordinator of the International Relations Office, Fatima Valiyeva, rector of Zonguldak Bulent Ecevit University, Prof. Ismail Hakkı Özölcher, vice rector Prof. Hakan Kutoğlu, head of International Relations Office Murat İnce.

Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, gave the guests detailed information about Khazar University and its activities. Then the promotional video of Zonguldak Bulent Ecevit University was watched.

At the meeting, an agreement on promoting bilateral relations was signed and discussions were held in the direction of enhancing partnership and academic relations between educational institutions.

# PİCASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ XARİCİ NÜMAYƏNDƏLƏRLƏ GÖRÜŞ

Noyabrın 23-25-də Xəzər Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti və MİRAS İctimai Birliyinin tərəfdaş olduğu Erasmus+ PICASP layihəsi çərçivəsində xarici nümayəndələrlə görüş keçirilib.

Görüş Xəzər Universiteti və Azərbaycan Turizm və Menecment Universitetində Təcrübə müəssisəsi dərslərinin təşkili və Vilnüs Gediminas Texniki Universiteti və SERINAR-ın bu prosesə cəlb edilməsinə həsr olunmuşdu.

Görüşdə Litva Tədqiqat Şurasının üzvü, Vilnüs Gediminas Texniki Universitetinin professoru Arturas Kaklauskas, Layihənin koordinatoru, İtaliyanın Bolonya Biznes Menecmenti Universitetinin professoru Massimo Bianchi və İqtisadiyyat və İdarəetmə məktəbinin tədqiqatçısı Gabriella Paganelli iştirak edib.

Noyabrın 23-də Azərbaycan Turizim və Menecment Universitetində keçirilən görüşdə nümayəndələr və müəllimlər arasında layihənin inkişaf prosesi barədə müzakirələr aparılıb.

Noyabrın 24-də Xəzər Universitetinə gələn nümayəndələrlə əvvəlcə Erasmus+ PICASP layihəsi çərçivəsində aparılan fəaliyyətlər müzakirə edilib və "MOOC" (kütləvi şəkildə açıq onlayn dərslər) tədris edəcək müəllimlərlə görüş keçirilib. Daha sonra Təcrübə Müəssisəsini ziyarət edən qonaqlar burada tələbələrin layihə çərçivəsində alınmış kompüter və başqa avadanlıqlardan hansı səviyyədə yararlandıqları ilə bağlı müşahidələr aparıblar.

Növbəti gün (25 noyabr) isə MİRAS İctimai Birliyinin sədri Fariz Xəlili tərəfindən hazırlanan "Azərbaycanda arxeoloji sahələrin idarə edilməsi" adlı təqdimata baxış keçirilib. Eyni zamanda, Tarix və Arxeologiya departametinin müəllimi, t.ü.f.d. Bayram Quliyev də "Azərbaycan mədəni irsi: tarixi sərlövhə" mövzusunda çıxış edib.

Təqdimatlardan sonra qonaqlar, Xəzər universitetinin tələbələri və əməkdaşları ilə "Mədəni İrs" mövzusunda müzakirələr aparılıb.

# MEETING WITH FOREIGN REPRESENTATIVES WITHIN PICASP PROJECT

On November 23-25, a meeting was held with foreign representatives within the Erasmus+ PICASP project, in which Khazar University, Azerbaijan University of Tourism and Management and MIRAS Public Union are partners.

The meeting was dedicated to the organization of internship classes at Khazar University and Azerbaijan University of Tourism and Management, and the involvement of Vilnius Gediminas Technical University and SERINAR in this process.



The meeting was attended by Lithuanian Research Council member, Vilnius Gediminas Technical University Professor Arturas Kaklauskas, Project Coordinator, Italian Bologna University of Business Management Professor Massimo Bianchi and School of Economics and Management researcher Gabriella Paganelli.

On November 23, representatives and teachers discussed the development process of the project at the meeting held at the Azerbaijan University of Tourism and Management.

On November 24-25, representatives from Khazar University discussed the activities carried out within the framework of the Erasmus+ PICASP project, and a meeting was held with teachers who will teach "MOOC" (massively open online classes).

The next day (November 25), the presentation titled "Management of archaeological sites in Azerbaijan" prepared by Fariz Khalili, chairman of MIRAS Public Union, was reviewed. At the same time, Bayram Guliyev, Doctor of Philosophy in History and teacher of the Department of History and Archeology, also spoke on the topic "Cultural heritage of Azerbaijan: historical title".

After the presentations, discussions on "Cultural Heritage" were held with the guests, students




## BP TƏRƏFİNDƏN MƏLUMAT SESSİYASI KEÇİRİLDİ

## INFORMATION SESSION HELD BY BP

Noyabrın 29-da Karyera İnkişaf Mərkəzi və bp Azərbaycanın təşkilatçılığı ilə universitetin tələbə və məzunları üçün məlumat sessiyası keçirildi. Məlumat sessiyasında bp-nin Erkən Karyera üzrə baş məsləhətçisi Xədicə İsmayılova, Karyera üzrə məsləhətçi Mehriban Şıxzamanova, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə Logistika Aviasiya Əməliyyatları rəhbəri, Xəzər Universitetinin məzunu Anar İskəndərov, Alətlər və nəzarət mühəndisliyi üzrə

On November 29, at an information session was held for students and graduates of the university, organized by the Career Development Center and bp Azerbaijan.

The information session was attended by Senior Early Career Advisor Khadija Ismayilova, Career Advisor Mehriban Shikhzamanova, Anar Isgandarov, Logistics&Infrastructure/Aviation Manager for BP AGT Region, Maryam Allahverdiyeva, a graduate program student in Instrumentation and Control Engineering, Is-






məzun proqramında iştirak edən tələbə Məryəm Allahverdiyeva və Mexanika mühəndisi İskəndər Əsgərov iştirak ediblər.

Xədicə İsmayılova ümumilikdə şirkət haqqında, Mehriban Şıxzamanova bp-nin təcrübə və məzun proqramı, bu proqrama müraciət qaydaları və prosesi, Anar İskəndərov təcrübə proqramına qoşulan tələbələr üçün proqramın hansı imkanlar yarada biləcəyi barədə tələbələrə məlumat veriblər. Məryəm Allahverdiyeva isə tələbələrə bu proqramlarda iştirak etməyin faydalarından danışaraq, öz təcrübəsini bölüşüb.

Tədbir sual-cavabla başa çatıb.

kandar Askerov and Mechanical Engineer Challenger took part in the information session.

Khadija Ismayilova spoke and gave information about the company. Mehriban Shikhzamanova informed the students about the internship and graduate program of bp, the rules and process of applying to this program. Anar Isgandarov, informed about what opportunities the program can create for students who join the internship program. Maryam Allahverdiyeva shared her experience with the students by talking about the benefits of participating in these programs.

Then the meeting continued with answering students' questions.



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜDİR ƏVƏZİ EKSPERT KİMİ BEYNƏLXALQ VİRTUAL SEMİNARDA

Noyabrın 30-da İngilis dili və ədəbiyyatı departamentinin müdiri vəzifəsini icra edən Milana Abbasova Tədqiqat metodologiyası, tədqiqat yazısı və əlyazmaların redaktəsi üzrə beynəlxalq virtual seminarda ekspert qismində "Düzgün tədqiqat mövzusunun seçilməsi strategiyaları" mövzusunda təqdimatla çıxış etmişdir.

Seminar Hindistanın Lavanda Ədəbiyyat Klubu, Cape Comorin Trust təşkilatı və Malayziya Sənaye Əlaqələri və İnsan Resursları Assosiasiyası tərəfindən birgə təşkil olunmuşdu.

## ACTING HEAD OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE AS A RESOURCE PERSON AT THE INTERNATIONAL VIRTUAL WORKSHOP

On November 30, Milana Abbasova the acting head of the English Language and Literature department delivered her speech on "The Strategies of choosing a right research topic" as a resource person at the International Virtual workshop on Research Methodology, Research writing and Manuscript editing jointly organized by India's Lavender Literary Club and Cape Comorin Trust, and Malaysian Industrial Relations and Human Resource Association.








## AŞIQ KAMANDARIN 90 İLLİK YUBİLEYİ

Noyabrın 30-da Xəzər Universitetinin Fikrət Əmirov adına Konfrans-Konsert Mərkəzində XX əsr Azərbaycan aşıq sənətinin ən görkəmli nümayəndələrindən biri olan ustad aşıq Kamandar Əfəndiyevin anadan olmasının

## ASHIQ KAMANDAR'S 90TH ANNIVERSARY

On November 30, the Fikrat Amirov Conference-Concert Center of Khazar University held an event dedicated to the 90th anniversary of the birth of master ashiq Kamandar Efendiyev, one of the most prominent





90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirin aparıcısı, Azərbaycan aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu ustad sənətkar Kamandar Əfəndiyevin keçidiyi ömür yolu haqqında qısa məlumat verib. O vurğulayıb ki, 1932-ci ildə Borçalıda – indiki Marneuli rayonunun Kəpənəkçi kəndəində dünyaya gələn Aşıq Kamandar fitri istedadı sayəsində qısa müddətdə özünəməxsus bənzərsiz ifa tərzi ilə Azərbaycanda və bütün Türk dünyasında sevilən sənətkara çevrilib.

(*Ardı səh.32-də*)

representatives of the 20th century Azerbaijani ashiq art.

The secretary of the Azerbaijan Ashigs Union, Honored cultural worker Musa Nabioglu, a master artist Kamandar Efendiyev gave brief information about his life path. He emphasized that Ashiq Kamandar, who was born in 1932 in Borchali - the present-day Kapanakchi village of Marneuli district, became a beloved artist in Azerbaijan and the entire Turkic world in a short period of time thanks to his

(*To be continued page 32*)









Öz sənəti ilə böyük el məhəbbəti qazanan Aşıq Kamandarın sənətdəki xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilib, o, Gürcüstanın "Şərəf" ordeninə layiq görülüb. Doğma yurdunda ev-muzeyi yaradılıb, büstü ucaldılıb.

Sonra söz Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlıya verilib. O, tədbir iştirakçılarını salamlayaraq deyib ki, Aşıq Kamandar böyük ustad, unudulmaz və əvəzolunmaz sənətkardır: Aşıq Kamandarın ünvanına unudulmaz və əvəzolunmaz sözlərini təsadüfən qoşa işlətmədim. Həyatda təkrarolunmaz, əvəzolunmaz insanlar olur. Bəzən deyirlər ki, əvəzolunmaz insan yoxdur. Mən bu fikirlə qəti razı deyiləm. Hər bir sənət sahəsində əvəzolunmazlar var və aşıq sənətində də Kamandar Əfəndiyevi heç kim əvəz edə bilməz. Aşıq Kamandar fitri istedada malik bir sənətkar idi. Aşıq Kamandarın ustadı Sadıq Sultanov olub. Amma mən düşünürəm ki, Kamandarın ustad sənətkar kimi yetişməsində Əmrah Gülməmmədovun da böyük rolu olub. Aşıq Əmrah özü çox böyük bir sənətkar idi. Aşıq Kamandarla Aşıq Əmrah uzun müddət bir yerdə olublar, birlikdə məclislər keçiriblər. Və mən hesab edirəm ki, Aşıq Kamandarın çox ünlü bir sənətkar kimi yetişməsində bu da mühüm rol oynayıb. Aşıq Kamandar sənətdə öz yolu ilə gedən, özünün məktəbini yaradan bir sənətkar olub.

innate talent. Ashig Kamandar, who gained great popularity with his art, was highly appreciated by the state for his services in art. He was awarded the Order of "Honor" of Georgia. A house-museum was established in his homeland, and his bust was erected.

Then the floor was given to the rector of Khazar University, Professor academican Hamlet Isakhanli. Greeting the participants of the event, he said that Ashig Kamandar is a great master, an unforgettable and irreplaceable artist: I didn't accidentally use the words "unforgettable and irreplaceable" in the address of Ashig Kamandar. There are unique and irreplaceable people in life. Sometimes they say that there is no irreplaceable person. I strongly disagree with this idea. There are irreplaceable people in every field of art, and no one can replace Kamandar Efendiyev in the art of love. Ashig Kamandar was an artist with natural talent. Ashig Kamandar's master was Sadiq Sultanov. But I think that Amrah Gulmammadov played a big role in Kamandar's development as a master artist. Ashig Amrah himself was a great artist. Ashig Kamandar and AshigAmrah have been together for a long time and held parties together. And I think that this also played an important role in the development of Ashig Kamandar as a very famous artist. Ashig Kamandar was an artist who followed his own path and created his own school.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı çıxışında qeyd edib ki, Aşıq Kamandar Əfəndiyev sənətdə mogikan idi. O, bu sənətə sanki sirli bir aləmdən gəlmişdi, sənətdə öz sözünü dedi və sonda yenə də gəldiyi yerə döndü. Aşıq Kamandar sazın böyük bilicisi idi, böyük ifaçı idi. Nadir hallarda aşıqlar elə saz çala bilir. Yəni həm gözəl oxumaq və gözəl dastan danışmaqla yanaşı, həm də gözəl saz çalmaq hər aşığa qismət olan keyfiyyət deyil. O, çox gözəl saz çalmaqla yanaşı, həm də havalara özünəməxsus əlavələr edirdi. Məsələn, "Turacı" havası üzrəində Aşıq Kamandar elə gözəl işlədi, elə əlavələr etdi ki, sonunda yeni hava yaratdı və adını da "Fəxri" qoydu. Mən hesab edirəm ki, Aşıq Kamandarın musiqi sahəsindəki fəaliyyəti ayrıca tədqiq olunmalıdır. Aşıq Kamandarın xidmətləri olduqca böyükdür, misilsizdir.

Tədbirin bədii hissəsində Əməkdar mədəniyyət işçisi Gülarə Azaflının rəhbərlik etdiyi"Çeşmə" folklor qrupu, aşıqlardan Cahangir Sənanoğlu, Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı, Ramin Qarayev, Avdı Musayev, Nəbi Nağıyev, Nazim Bahadıroğlu Şaiq İncəli, Əşrəf Qəriboğlu, İmran Göyçəli, Seymur Laçınlı və Qabil Borçalı müxtəlif aşıq havaları üstündə Aşıq Kamandarın öz sözlərini və ona ithaf olunmuş şeirləri oxuyublar. Ustadın nəticələri Mehin və Aylin Qarayeva bacıları babalarının yaradıcılığından bir neçə şeiri səsləndiriblər.

Xatırladaq ki, Aşıq Kamandar Əfəndiyev 2000-ci il oktyabr ayının 26-da dünyasını dəyişib.

Tədbir haqqında baki-xeber.com və digər saytlar xəbər yayımlayıb.

The Chairman of Azerbaijan Ashigs Union, Honored Scientist, Professor Maharram Gasimli noted in his speech that Ashqi Kamandar Efendiyev was a Mohican in art. He came to this art as if from a mysterious world. Ashig Kamandar was a great connoisseur of saz and a great performer. In rare cases, ashigs can play such a tune. In other words, in addition to being able to sing beautifully and tell a beautiful story, playing a beautiful instrument is not a quality that every lover is destined to have. In addition to playing a very beautiful instrument, he also made unique additions to airs. For example, Ashig Kamandar worked so well on the air "Turaci" and made such additions that at the end he created a new air and named it "Fakhri". I think that Ashig Kamandar's activity in the field of music should be studied separately. The services of Ashig Kamandar are great, unparalleled.

In the artistic part of the event, the folkloric group "Cheshme" led by Honored Culture Worker Gulara Azafli, among its members Jahangir Sananoghlu, Honored Worker of Culture Adalat Dalidaghli, Ramin Garayev, Avdi Musayev, Nabi Naghiyev, Nazim Bahadıroghlu Shaiq Inceli, Ashraf Gariboghlu, Imran Goycheli, Seymur Lachinli and Gabil. Borchali recited Ashig Kamandar's own words and poems dedicated to him on various love moods. The master's results Mehin and Aylin Garayeva's sisters recited several poems from their grandfather's work.

It should be noted that Ashig Kamandar Efendiyev died on October 26, 2000.

The website baki-xeber.com published news about the event:

*https://www.baki-xeber.com/medeniyyet/148725.html*





# DAHİ BƏSTƏKAR FİKRƏT ƏMİROVUN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ KONSERT

# CONCERT DEDICATED TO THE 100TH ANNIVERSARY OF GENIUS COMPOSER FIKRET AMIROV

Dekabrın 19-da Xəzər Universitetinin Mərkəz kampusundakı Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində dahi bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə əsərlərindən ibarət konsert keçirildi. Kampusun foyesində universitetin Dekorativ və Tətbiqi Sənət Muzeyinin direktoru, tanınmış xalçaçı rəssam Afaq Kərimovanın rəhbərliyi ilə bəstəkarın həyat və fəaliyyəti haqqında tərtib edilmiş geniş sərgi nümayiş olunurdu.

Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, ölkənin mədəniyyət xadimləri, ziyalılar və bəstəkarın qızı Sevil Əmirova iştirak edirdilər.

On December 19, a concert dedicated to the 100th anniversary of the genius composer Fikret Amirov was held at the Fikret Amirov Conference-Concert Center of Khazar University. In the lobby of the campus, a large exhibition about the composer's life and activities was displayed under the direction of the director of the University's Museum of Decorative and Applied Arts, well-known carpet artist Afag Karimova.

Khazar University administration and employees, cultural figures of the country, intellectuals and the composer's daughter Sevil Amirova took part in the event.





Tədbir Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının geniş giriş nitqi ilə başladı. H. İsaxanlı böyük bəstəkarın yaradıcılığının əsas mərhələləri haqqında ətraflı danışdı və əsərlərinin dünyada ifa olunaraq şöhrət qazanmasını onun fövqəladə istedadı və zəhmətsevərliyi ilə əlaqələndirdi. O, çıxışının sonunda Afaq Kərimovanın bəstəkarın 100 illiyinə həsr

*(Ardı səh.36-də)*

The event began with an introductory speech by professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees. In his speech, H. Isakhanli detailed the main stages of the talented composer's creative process and credited his extraordinary talent and dedication for gaining fame and recognition around the world. He also gave information on Afag

*(To be continued page 36)*





olunaraq salonda nümayiş etdirilən ipək üzərində işlənmiş süjetli-portret batikası və "Musiqi dünyamız" (Üzeyir Hacıbəyli, Qara Qarayev və Fikrət Əmirovun portretləri ilə) adlı xalçası, həmçinin heykəltəraş Əliağa Mailovun açılışı edilən "Fikrət Əmirov" büstü haqqında məlumat verdi.

Konsert proqramı universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbəri olduğu universitet Kamera orkestrinin Orxan Həşimovun dirijorluğu ilə "1001 gecə" baletindən "Şəhrizadın bayramı"nın ifası ilə başlandı. Konsert əsas etibarilə Kamera orkestinin, pianoçu Zülfiyyə Sadıqovanın ifaları



və Orxan Həçimovun diriyorluğu ilə keçdi.

Orkestr tərəfindın "Nizami" simfoniyasının 4-cü hissəsi və "Sevil" operasından "Vals" ifa olunduqdan sonra konsert Azərbaycanın görkəmli və məşhur musiqi xadimləri və gənc ifaçıların iştirakı ilə davam etdi.

Əməkdar artist Səidə Şərifəliyeva ("Sevil" operasından Dilbərin mahnısı, "Böyük dayaq" filmindən Pərişanın mahnısı), Əməkdar artist Aqşin Abdullayev ("Sevil" operasından Balaşın mahnısı), Xalq artisti Elşən Mansurov ("Layla"), Bakı Musiqi Akademiyasının 4-cü kurs tələbəsi Nazim Mahmudov (Se-

Karimova's story-portrait batik embroidered on silk and a carpet called "Our Music World" (with portraits of Uzeyir Hajibeyli, Gara Garayev and Fikret Amirov) displayed in the hall hosting event dedicated to the 100th anniversary of the composer, as well as "Fikrat Amirov" bust of sculptor Aliagha Mailov.

The concert program began with the performance of Shahrizad's Day from the ballet "1001 Nights" under the direction of Orkhan Hashimov, the conductor of the University Chamber Orchestra, the artistic director of which is the head of university's Music and Art Department, honored teacher, well-known



pianist Zulfiyya Sadighova. The concert was mainly performed by the Chamber Orchestra and pianist Zulfiyya Sadighova and conducted by Orkhan Hashimov.

After the orchestra performed the 4th part of the "Nizami" symphony and "Waltz" from the "Sevil" opera, the concert continued with the participation of prominent and famous musical figures and young performers of Azerbaijan.

Honored artist Saida Sharifaliyeva, Honored artist



vil" operasından Atakişinin kupletləri), Xalq artisti Gülnaz İsmayılova ("Sevil" operasından "Sentimental romans"), Bakı Musiqi Akademiyasının 4-cü kurs tələbəsi Emin İsmayılov ("Sevil" operasından Balaşın ariyası), Xalq artisti Xuraman Qasımova ("Sevil" operasından Sevilin ariyası, videogörüntüdə), Xalq artisti Alim Qasımov ("Şeyx Sənan" dram əsərindən Kor ərəbin mahnısı), Əməkdar artist Nigar Məlikovanın fortepianoda müşayiəti ilə Bakı Musiqi Akademiyasının 4-cü kurs tələbəsi Leyla Baxışova ("Ulduz"), Opera və Balet Teatrının solisti Urfan Cəfərov ("Evləri var xanə-xanə"), Gülnaz İsmayılova ("Gülüm"), Emin Hüseynov ("Sevgi rəqsi"), Əməkdar artist Çinarə Mütəllibova ("Muğam-poema") və SSRİ Xalq artisti Fidan Qasımova ("Mən səni araram", videogörüntüdə) bəstəkarın əsərlərini ifa etdilər. Xalq artisti, pianoçu Yeganə Axundova özümün "Miniatürlər" əsərini səsləndirdi.

Yeganə Axundova və Xuraman Qasımova çıxış edərək, dahi bəstəkara həsr olunmuş konserti yüksək dəyərləndirdilər, Xəzər Universitetinin rəhbərliyinə, Musiqi və incəsənət departamentinə təşəkkürlərini bildirdilər. Yeganə Axundova öz ifası ilə bəstəkarın fortepiano musiqisi yazılmış diski universitetə hədiyyə etdi.

Tədbir konsert iştirakçıları tərəfindən "Azərbaycan elləri" mahnısının birgə ifası ilə başa çatdı.



Agshin Abdullayev, 4th year student of Baku Music Academy Nazim Mahmudov, People's artist Gulnaz Ismayilova, 4th year student of Baku Music Academy Emin Ismayilov, People's artist Khuraman Gasimova, People's artist Alim Gasimov, Honored artist Nigar Malikova, 4th year student of Baku Music Academy Leyla Bakhishova, soloist of Opera and Ballet Theater Urfan Jafarov, Gulnaz Ismayilova, Emin Huseynov, Honored Artist Chinara Mutallibova, People's Artist Yegane Akhundova and People's Artist Fidan Gasimova performed the composer's works.



# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və**
**Qəyyumlar Şurasının sədri professor, akademik**
**Hamlet İsaxanlıya**

**Hörmətli cənab Sədr,**

Bu ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan və SSRİ-nin Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

Bu sərəncamla bağlı ilin əvvəlindən etibarən, demək olar ki, yubiley respublikamızın bütün güşələrində və xarici ölkələrdə silsilə tədbirlərlə qeyd edilir.

Atamın 100 illik yubileyi ilə əlaqədar dekabrın 19-da Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində ölkənin mədəniyyət xadimləri və ziyalıların iştirakı ilə keçirilən tədbir özünə məxsus yer tutur.

Kampusun foyesində universitetin Dekorativ və Tətbiqi Sənət Muzeyinin direktoru, tanınmış xalçaçı rəssam Afaq Kərimovanın rəhbərliyi ilə bəstəkarın həyat və fəaliyyəti haqqında tərtib edilmiş geniş sərgi nümayiş olundu. Həmçinin, tədbirdə heykəltəraş Əliağa Mailovun "Fikrət Əmirov" büstü nümayiş etdirildi.

Siz tədbiri açaraq öz geniş və əhatəli çıxışınızda bəstəkarın yaradıcılığının əsas mərhələləri haqqında ətraflı məlumat verdiniz.

Tədbir zəngin musiqi proqramı ilə davam etdirildi. Konsert Universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbəri olduğu universitet Kamera orkestrinin ifası, Orxan Həşimovun dirijorluğu ilə keçdi.

Atam Fikrət Əmirovun 100 illik yubileyi çərçivəsində onun unudulmaz xatirəsinin yad edilməsinə yönəldilmiş möhtəşəm tədbirin uğur və ləyaqətlə keçirilməsində Sizə və Universitetin əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*
**Sevil Əmirova**

# LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

**To Professor Hamlet Isakhanli, Chairman**
**of Khazar University's Board of Directors,**
**and Trustees**

**Distinguished Chairman,**

In March of this year, the President of the Republic of Azerbaijan Ilham Aliyev signed a decree on the celebration of the 100th anniversary of the People's Artist of Azerbaijan and the USSR, laureate of State awards Fikret Amirov at the state level.

According to this decree, a series of events in our country and abroad have been held since the beginning of this year in celebration of the jubilee.

In connection with the 100th anniversary of my father, the event held on December 19 at the Fikret Amirov Conference-Concert Center of Khazar University with the participation of cultural figures and intellectuals of the country is of great importance.

In the lobby of the campus, a wide exhibition about the composer's life and activities was shown under the leadership of the director of the University's Museum of Decorative and Applied Arts, well-known carpet artist Afag Karimova. Also, the bust of sculptor Aliagha Mailov "Fikrat Amirov" was exhibited at the event.

You opened the event and gave detailed information about the main stages of the composer's creativity in your wide and comprehensive speech.

The event continued with a rich music program. The concert was conducted by Orkhan Gashimov under the direction of the Chamber Orchestra of the University, the artistic director of which is the head of the Department of Music and Art of the university, honored teacher, famous pianist Zulfiya Sadigova.

I extend my deepest gratitude to you and the university staff for hosting such a grand event to honor his unforgettable memory as part of the 100th jubilee events of my father Fikret Amirov .

*Sincerely,*
**Sevil Amirova**




## "ОРУДИЯ ТРУДА И ХОЗЯЙСТВО РАННЕЗЕМЛЕДЕЛЬЧЕСКОГО ПОСЕЛЕНИЯ АЛИКЕМЕКТЕПЕ В СВЕТЕ ТРАСОЛОГИЧЕСКОГО ИЗУЧЕНИЯ" MONOQRAFİYASI ÇAPDAN ÇIXIB

Xəzər Universiteti Nəşriyyatında uiversitetin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Roza Arazovanın "Орудия труда и хозяйство раннеземледельческого поселения Аликемектепе в свете трасологического изучения" ("Əliköməktəpə erkən əkinçilik yaşayış yerinin əmək alətləri və təsərrüfatı trasoloji tədqiqat əsasında") adlı monoqrafiyası çapdan çıxmışdır.

Monoqrafiya Əliköməktəpə yaşayış məskəninin oturaq əkinçi-maldar əhalisinin əmək alətlərinin öyrənilməsinə və təsərrüfatının rekonstruksiyasına həsr olunub. Trasoloji metod və eksperimental təcrübələrlə əkinçilik və heyvandarlıqla bağlı çoxlu alətlər müəyyənləşdirilmişdir. Araşdırmada, həmçinin, ev sənətkarlığı: dəri işləmə, ağac və sümük işləmə, dulusçuluq, toxuculuq və sənətkarlıqda müxtəlif iş prosesləri bərpa edilmişdir.

Monoqrafiyada Azərbaycan və ingilis dillərində geniş xülasə və ədəbiyyat siyahısı verilmişdir.

Monoqrafiya arxeoloq və tarixçilər üçün nəzərdə tutulub.

## THE MONOGRAPH "ОРУДИЯ ТРУДА И ХОЗЯЙСТВО РАННЕЗЕМЛЕДЕЛЬЧЕСКОГО ПОСЕЛЕНИЯ АЛИКЕМЕКТЕПЕ В СВЕТЕ ТРАСОЛОГИЧЕСКОГО ИЗУЧЕНИЯ" PUBLISHED

Khazar University Publishing House has published the monograph of Roza Arazova, the lecturer of the university, doctor of philosophy in history, associate professor, entitled "Орудия труда и хозяйство раннеземледельческого поселения Аликемектепе в свете трасологического изучения"( "Labour tools and economy of Alikomektepe early farming settlement based on trasological research").

The monograph is dedicated to the study of labor tools and the reconstruction of the economy of the sedentary farmer-herder population of Alikomektepe settlement. Many tools related to farming and animal husbandry have been identified by trasological method and experiments.

The study also recovered various work processes in home crafts: leather working, wood and bone working, pottery, weaving and crafts. The monograph contains an extensive summary and bibliography in Azerbaijani and English. The monograph is intended for archaeologists and historians.



# NİZAMİ GƏNCƏVİ. KİMLİYİ VƏ İDEYALAR ALƏMİ

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 419-cu (iyul 2022),420-ci (sentyabr 2022), 421-ci (oktyabr 2022), 422-ci (noyabr 2022) nömrələrində*

* * *

İsgəndər Çindən geriyə dönmək qərarına gəldi, dostlaşdığı Çin xaqanı – "Həmin türk hökmdarla vidalaşdı" (5272). Ceyhun çayı sahilində dincəldi, ənənəvi quruculuq işini davam etdirdi…

*İnsana ruh verən Səmərqəndi də*
*Deyilənə görə o bina etmişdir* (5281).

İsgəndər ikinci vətəni saydığı İrana qayıtmaq istəyirdi: "Mən Əcəm mülkünə getmək əzmində idim" (5354). Amma, "Abxaz hökmdarı olan Dəvali" (5304) gəldi və inildədi: "Rusun ədalətsizliyindən fəryad, ey şah!" (5307). Dəvali İsgəndərə rusun kim olduğunu ətraflı anlatmağa çalışır, məsələn:

*Həddən artıq basqın etdilər* (5311).
*Bu eli, ölkəni tarac etdilər* (5312).
*Həmin Bərdə mülkünü yıxıb dağıtmışlar,*
*Var, dövlətlə dolu şəhəri boşaltmışlar,*
*Nüşabəni əsir apardılar* (5316-7).
*Çünki xalqların xamı və dünyanın alçaqlarıdırlar* (5325).
*Rusdan heç kəs mərhəmət gözləməz* (5327).
*Çox ölkələrə əziyyət verəcəklər,*
*Zülmdə qol-qanad açacaqlar* (5329-30).

Bu xəbəri alan İsgəndər çox hirsləndi, onu intiqam hissi bürüdü:

*Rus şirlərindən mən bu kini almasam*
*İtəm, it, nə Feyləqus oğlu İsgəndər!* (5345).
*Nüşabəni də zəncirdə qoymarıq* (5348).
*Hiddətindən o gecə yata bilmədi* (5367).

Tarixi qaynaqlarda Rus adına ilk dəfə 9-cu əsrdə rast gəlinir; Kiyev şəhəri ətrafında

dövlət qurmaqda olan xalqa ruslar deyildi. Yəni, ruslar tarix səhnəsinə Makedoniyalı Aleksandr dövründən hardasa 1200 il sonra meydana çıxdı. Nizami nə üçün belə böyük anaxronizmə əl atır, rusları İsgəndərlə üz-üzə gətirir, onları döyüşdürür? Nizami`nin bu açıq-aşkar tarixi anaxronizminin səbəbi nədir? Nizami`dən başqa İsgəndər və rusları birlikdə görən yazıya rast gəlinmir, bu mövzuda əfsanə belə mövcud deyil. Nizami`nin təxəyyülü və şairlik qüdrətinin məhsulu olan ədalətli hökmdar İsgəndər öz adəti üzrə zalıma dərs vermək, məzlumu qorumaq istəyir, bu halda rusları torpaq tutub talan etmək işinə görə cəzalandırmaq qərarına gəlir.



*Nizami Gəncəvi*

Rus təhlükəsinin tarixi rus tarixinin özü qədər qədimdir. Ruslar 9-11-ci əsrlərdə gəmilərlə Xəzər dənizində üzüb dəfələrlə dənizin qərb və cənub sahillərinə basqın etmiş, ayaq basdıqları hər yeri talamışlar. Xüsusilə 912-13-cü illər və 943-44-cü illərdə ruslar bu yerlərdə böyük basqın, talan və qırğın törətmişlər. 943-44-cü illərə təsadüf edən hücum zamanı, deyilənə görə 3 minə yaxın rus Xəzər dənizindən gəmilərlə Kür çayı boyu qərbə doğru üzüb zəngin Bərdə şəhərinə gəlmiş, şəhəri bir müddət (6 ay, hətta bir ilə yaxın?) işğal altında saxlamış, çalıb-çapıb talamışlar. Tarixi qaynaqlarda rusların çox güclü olduğu deyilir. Hər iki tərəf döyüşlərdə çox itki vermiş, sonda yoluxucu xəstəlik də rusları əldən salmış, sağ qalanlar gəmilərlə Bərdəni tərk etmişlər.[41,42,43]

Nizami Makedoniyalı Aleksandrın gerçək tarixini, yəqin ki, dəqiq bilməzdi. O, digər şairlər kimi, sonralar Psevdo-Kallisfen adı almış hekayə və əfsanələri əsas götürmüş, lakin "İsgəndərnamə"də əfsanə hissəsinə, demək olar ki, yer verməmiş, digər məlumatlardan yaradıcı şəkildə istifadə etmiş, onları özü bildiyi kimi dəyişdirmiş, şərh etmişdir. Nizami`nin sevdiyi və vəsf etdiyi Bərdə şəhərinin ruslar tərəfindən talan edilməsi, orada baş verən böyük qırğın, yəqin ki, xalqın yaddaşında iz salmış, həmçinin tarixçilərin əsərlərində öz əksini tapmışdı. Nizami yaxşı bildiyi bu tarixi hadisəni öz "İsgəndərnamə"sində əks etdirmiş, İsgəndəri ruslardan intiqam almağa yönəltmişdi.

İsgəndər ruslar tərəfə yürüşə başladı:

*Dalğalı Ceyhundan atını keçirtdi* (5371).
*Xarəzm çölünü ötüb keçdi* (5373).
*Axırda Səqlab çölünə gəlib yetişdi* (5375).

Nizami "Səqlab çölü" desə də, poemanın bu hissəsini "İsgəndərin Qıpçaq çölünə çatması" adlandırıb. Burada qıpçaq türklərinin bir adəti - gözəl qıpçaq qadınların üzü açıq gəzməsi İsgəndəri çaşdırdı:

[41] Якубовский А. Ю. 1926. Ибн-Мискавейх о походе Русов в Бердаа в 332 г. = 943/4 г. *Византийский Временник*. Cild 24. Moskva: Nauka.

[42] Дорн Б.А. 1875. *Каспий. О походах древних русских в Табаристан, с дополнительными сведениями о других набегах их на прибрежья Каспийского моря*. Sankt-Peterburq: Akademiya Nauk. səh 524-530.

[43] Logan D. F. 1992. *The Vikings in History*. 2nd ed. New York: Routledge.

*Bu çöldə çoxlu qıpçaq eli gördü,*
*Baldırı səmən tək parlaq gözəllər gördü* (5375-6).
*Üzlərində əslən örtük olmazdı,*
*Nə qardaşdan qorxarlar, nə də ki ərdən* (5379).

İsgəndər ehtiyat etdi və qıpçaq başçılarına müraciət etməli oldu:

*Tamarzı, subay əsgərlər də*
*Cavanlıq odundan cuşa gəldilər* (5380-81).
*Qıpçaq qocalarına üstüörtülü dedi:*
*Qadınlar üzünü örtsə yaxşıdır* (5388).

Qıpçaq başçıları bu halı öz adətləri kimi müdafiə etdilər:

*Şahın sözlərini bir-bir dinləyincə*
*Bu işdə hökmünə boyun əymədilər,*
*Çünki öz adətlərinə sadiq qaldılar* (5391-2).

Onların cavabı fövqəladə dərəcədə gözəl və maraqlıdır:

*Baş əyib dedilər: "Biz bəndəyik,*
*Şahın fərmanına həmişə hazırıq.*
*Lakin üzü örtmək əmr ilə olmaz,*
*Çünki qıpçağın xislətində belə adət yoxdur.*
*Əgər sənin adətin üzləri bağlamaqdırsa,*
*Bizim adətimizlə – gərək gözlər qapansın* (5393-5).
*...Cinayət üzdə deyil, baxan gözdədir* (5396).
*Bəli, bizim hamımız şaha tabeyik,*
*Lakin öz adətimizdən heç vaxt keçmərik"* (5402).

Ümumiyyətlə, "İsgəndərnamə"dən rus, burtas, bolğar (bulqar), xəzər və qıpçaqların yan-yanaşı yaşaması görünür; bu, Nizami`nin şimal coğrafiyasından yaxşı xəbərdar olduğunu nümayiş etdirir.



*Həbibullah ibn Əli ibn Hüsam. İsgəndər Nüşabənin Bərdədəki sarayında, 1563, Uolters Sənət Muzeyi (ABŞ)*

Nizami İsgəndərin ruslarla müharibəsini İsgəndər`in ən böyük, ən çətin və qorxulu savaşı kimi uzun-uzadı təsvir edir. Savaşda qalib gələn İsgəndər Nüşabə`ni azad etdi. Bu savaşda Çin xaqanı`nın İsgəndərə bağışladığı və İsgəndərin etina etmədiyi Çinli kəniz qız böyük qəhrəmanlıq göstərdi. İsgəndər ona vuruldu.

Ruslarla savaşdan sonra

İsgəndər uzaq qaranlıq şimalda dirilik suyu olduğu xəbərini aldı:

*Şimal qütbünün altında qaranlıq hicab var,*
*Orada zülal sulu pak bulaq axır.*
*Adı zülmət olan qara hicab altında*
*Sakitlik içində dirilik suyu axır* (6446-7).

İsgəndər "Düz bir ay şimala doğru yol getdi" (6478).

*Bir yerə çatdılar ki, günəşin ancaq*
*Xəyalını yuxuda görmək olardı* (6481).
*Bir yandan qaranlıq hər yeri basmış,*
*O yandan dərinümman yolu kəsmiş* (6484).
*Aydınlıq birdən-birə yoxa çıxdı,*
*Yolun hər yanını zülmət bürüdü* (6487-8).



*Naməlum rəssam. İsgəndər və Xızır peyğəmbər həyat bulağının yanında, XVI əsr, Uolters Sənət Muzeyi*

Beləliklə, *İsgəndər məlum dünyanın kənar, uc nöqtəsinə çatır – bu halda şimala, qaranlıq dünyaya, indi Şimal buzlu okeanı adı verdiyimiz yerə.* Nizami`nin İsgəndər`i dünya hökmdarıdır və o, məlum dünyanın dörd tərəfinə səyahət etmək fikrinə düşür. E. Bertels İsgəndərin dünyanın üç (qərb, şərq, cənub) ucuna səyahət etdiyini qeyd edir, amma, nədənsə, şimal uca çatdığını unudur.[44]

İsgəndər dirilik suyu arxasınca zülmətə gedir, lakin, ona dirilik suyu əldə etmək qismət olmur, "İsgəndər axtardı, dirilik suyu tapmadı" (6624).

İsgəndər geri qayıtmağa üz tutdu.

*Bu xoşbəxt Bolğardan Rusa yetişdi* (6445).
*Oradan da qayıtdı Rum dənizinə,*
*Gəmiləri Rum abadlığına sürdü* (6747).

İsgəndər "Uzaq yolların zəhmətindən dincəldi" (6758). Böyük sərkərdə, ədalətli hökmdar və dünya görmüş hikmət sahibi olan İsgəndər`ə peyğəmbərlik verilməsi barədə ilkin məlumat gəldi.

*Peyğəmbərlik etmək üçün fərman çatdı,*

[44] **Бертельс Е.Э. 1981.** ***Политические взгляды Низами.*** **Bax:** ***Выдающиеся русские ученые и писатели о Низами Гянджеви.*** **Bakı: Yazıçı. səh 50.**

*İtaət etməkdən boyun qaçırmadı* (6767).

İsgəndər peyğəmbərliyi yenidən səfərə çıxmaqla başlamaq fikrinə düşdü:

*Təzədən səfər azuqəsini götürdü,*
*Dünyanı dolanmaq hesabına yenə girişdi* (6768).

* * *

Nizami "İqbalnamə"də İsgəndərə peyğəmbrlik verilməsi məsələsinə qayıdır və xəbəri dəqiqləşdirir:

*Allahdan bir mələk gəldi* (İqbalnamə, 1649)
*Pak Allahdan vəhy çatdırdı* (1651) ...
*Səni peyğəmbərliyə layiq görmüşdür* (1653).

*Qasid mələkdən o sifarişi qəbul etdi*
*"O Allahdır, bizim isə adımız bəndədir"* (1710)
*Səfər əzmi ilə yol hazırlığı gördü"* (1712).

İsgəndər öz peyğəmbərlik yürüşünü Rumdan başlayıb bir neçə gün Misirdə qalıb Qüdsə gedir, o ətrafda "işini qaydaya saldıqdan sonra" (2103) Məğrib – Əfrəncə və Əfrəng – Əndəlüs yolu ilə davam edir:

*Məğribə doğru cilovunu sürətlə yönəltdi,*
*Oradan qoşunu çəkdi Əfrəncəyə,*
*Əfrəncədən isə Əndəlüsə yol aldı* (2103-4).

İsgəndər "Dənizə gəmi saldı" (2111), "Günəşin gizləndiyi səmtə doğru" (2113) getdi, "Çox adalar gördü adamsız" (2114). Sonra quruya çıxıb böyük səhra ilə uzun yol getdi "Bir ay o səhrada at çapdılar" (2121) və

*İsgəndər böyük bir dənizə çatdı,*
*O dərin dənizə heyran qaldı,*
*Yunanlar ona Oqyanus deyirdilər* (2122-3).

Qeyd edim ki, Nizami hələ ilk əsəri "Sirlər xəzinəsi"ndə səhra və dənizin birini tərifləyib, digərini pisləməyin doğru olmadığını, onlar arasındakı fərqin nisbiliyini vurğulamışdı:

*Səhrada olan dəstələr deyirlər:*
*"Dəryada olanlar nə xoşbəxtdirlər!"*
*Lakin dəryada məşəqqətə qatlaşanlar*
*Nalı oda qoyub bağırırlar: "Səhra necə gözəldir!"* (Sirlər xəzinəsi, 1045).

Beləliklə, Nizami İsgəndər`i Atlantik okeanına da aparır. Nizami bu yerdə "Günəş işıq saçanda o tərəfdə qaranlıqdır" fikrini vurğulayır, "Çünki Yerin yuvarlaqlığı da hesaba alınır" ("İqbalnamə", 2136).

Okeanda qərbə doğru gəmi səfəri keçilməz təlatüm üzündən başa çatdı, yəni İsgəndər

məlum dünyanın mümkün ən qərb nöqtəsinə çatdı və təbii ki, geri qayıtdı:

*Dəniz mühiti dəhşətli təlatümə gəlmişdi,*
*Ondan o tərəfə getmək mümkün deyildi* (2124).

Sonra İsgəndər "Dənizdən səhraya doğru tələsdi" (2189) və

*Nil çayının yanına yetişdi,*
*Nilin mənbəyini görmək arzusuna düşdü* (2191-2).

Qeyd etmək lazımdır ki, yunanlar "Nilin mənbəyi haradadır?" sualının cavabını bilmirdilər. Ümumiyyətlə, Nilin haradan başlaması məsələsi üzərində qədim və orta əsrlərdə çox filosof, alim, hökmdar və səyyahlar baş sındırmışlar. Hətta yeni dövrdə də "Nilin qolları haradan başlayır?" istiqamətində müzakirələrin arası kəsilməmişdir. Görünür ki, Nizami Nilin mənbəyi məsələsinin çətinliyi barədə eşitmiş və öz sevimli qəhrəmanına bu məsələni həll etdirmişdi...

*Bulaqlar yağışla bir-birinə qarışmış,*
*Hər ikisindən bir çay yaranmışdı* (2235).

Nizami`nin İsgəndər`i ümumdünya səfərini davam etdirir. *Nilin mənbəinə çatmaqla İsgəndər sanki məlum dünyanın cənubuna, cənub ucuna çatmış olur.* Nizami`nin Afrikanın təbiəti, yaşayış şərtləri barədə maraqlı mülahizələri onun bu məsələləri diqqətlə öyrəndiyindən xəbər verir. O, bu yerlərin zəngin almaz yataqları barədə söhbət açır.

Ürəyinə yenidən Hindistan və Çin düşən İsgəndər "Məşriqə doğru bayraq qaldırdı" (2530), Qəndəhardan keçdi və

*Şərq ölkələrini gəzə-gəzə*
*O bir də gəlib Çinə çıxdı* (4572-3).



*Naməlum rəssam. İsgəndərin Çin xaqanı ilə döyüşməsi, 1517–1518, Uolters Sənət Muzeyi*

İsgəndər şimal, cənub və qərbdə olduğu kimi, şərqdə də məlum dünyanın sonuna çatmaq arzusuna düşür. Uzaq Şərqdə, yəni, Çində də dənizə doğru getmək istəyir: "İstəyirəm ki, dənizin pisinə və yaxşısına tamaşa edim" (2584). İsgəndər dənizə, bu halda bizim bildiyimiz Sakit okeana çatır. Yunanların tanımadıqları bu dənizə, təbii ki, "Okyanus" deyən olmamışdır, Nizami "Çin dənizi" deməklə kifayətlənir. "Təcrübəli şah gəmiyə mindi" (2625), "Gəmini Çin dənizinə saldı" (2630). Xeyli yol gedib, dənizin ortasında güclü cərəyana rast gəldilər, "Dəniz suyunun meyl etdiyi səmt müəyyən olundu" (2635) və belə qərara gəldilər ki,

*Bundan o tərəfə yol yoxdur,*
*Dənizin o tərəfindən heç kəsin xəbəri yoxdur* (2647).

Beləliklə, İsgəndər *məlum dünyanın daha bir uc nöqtəsinə, ən uzaq şərqə çatdı* və Atlantik okeanında olduğu kimi, burada da geri qayıtmağa məcbur oldu.

Dənizdə böyük təhlükədən xilas olan İsgəndər cəmi bir həftə dincələ bildi, "Dünyanı dolaşmaq yenə yadına düşdü" (2740), "İsgəndər Çindən Xırxıza səfər fikrinə düşdü" (2824), "Məşriqdən şimal həddinə gəldi" (2827), şimalda xalqı amansız yəcucların hücumlarından qorumaq üçün *"İsgəndər səddi tikildi"* (2893). Və nəhayət, İsgəndər bolluq içində yaşayan, sağlam, yalan danışmayan, qarşılıqlı yardım üzərində qurulan, ədalətli, mühafizəyə ehtiyac duymayan şəhərlə rastlaşdı, utopik sosial bərabərliyin hökm sürdüyü bir yerə gəlib çıxdı – "Bizlərdən heç kəsin malı başqasının malından çox deyil" (2936). Nizami`nin Əxiliklə bağlılığı doğrudursa, "İsgəndərnamə"`də yer tutan bu utopiyanın Əxilik ideyalarından qaynaqlanması fikri qəribə görünməməlidir. E. Bertels buna işarə vurmuşdur.[45] İsgəndər "Dünya bu yaxşı adamlara görə öz yerində qərar tutur" (2974) fikrinə gəldi.

Nizami nə öz dövründə, nə tarixdə tam ədalətli hökmdara rast gəlməmişdi, İsgəndər – peyğəmbərliyə yüksəlmiş bu ədalətli hökmdar surəti Nizami`nin öz xəyalının məhsulu idi. Nöqsanlardan azad hökmdar tapmaq olmur, ədalətli hökmdar yetişdirmək olmur, yaxşı hökmdarların da zayı çıxır... Bəlkə hökmdarı olmayan xoşbəxt cəmiyyət mümkün ola bilər?! E. Bertels`in İsgəndər "ömrü boyu arzu etdiyi bir ideal ölkə axtarırdı" fikri (s. 50) aydın deyil. Aydındır ki, tarixi Makedoniyalı Aleksandrın belə bir fikri ola bilməzdi. O ki, qaldı, Nizami`nin İsgəndər`inə, "İsgəndərnamə"də onun ideal dövlət axtarması fikrinə rast gəlinmir. Bir şey yəqindir: Nizami özü ədalətli hökmdar sorağında idi. Platon`un "hökmdar filosof olmalıdır" fikri yaxşı məlumdur. Daha sonra o, fikrini yumşaltdı: hökmdar idarəetmə işində mütləq filosofla məsləhətləşməlidir, yəni hökmdarın filosof müşaviri olmalıdır. Nizami əsərlərində hökmdarlara müraciət edir, onları ədalətə dəvət edir, lakin həyatda ədalətin baş tutmadığını görürdü. Bu səbəbdən də o, öz ideal hökmdar surətini yaratdı. Bununla Platon`un istəyi də yerinə yetdi; İsgəndər filosofdur, filosoflarla oturub-durur və ədalətli hökmdardır, üstəlik peyğəmbərdir! Beləliklə, İsgəndər deyil, Nizami ideal dövlət axtarışında olmuşdur. Nizami`nin İsgəndər`i ölümsüzük əldə edə bilmədi. Yəni dünyanı həmişə, arasıkəsilmədən idarə edə bilən ədalətli hökmdar ola bilməz. Bəs İsgəndərdən sonra nə olacaq?! Nizami hökmdarsız, hamının bərabər olduğu xoşbəxt cəmiyyət utopiyasına gəlib çıxdı!

"Şahnamə"də isə ("Aleksandr romanı"nda və Aleksandr haqqında yazan bir sıra tarixçilərin əsərlərində) İsgəndər Brahmanlar ölkəsinə gəlir. Bu ölkə Nizami`nin utopik şəhərindən kəskin fərqlənir. Öz mağaralarından çıxan brahmanlar İsgəndər`ə xəbər göndərirlər – "ölkəmiz yoxsuldur", "burada dilənçi, yoxsul və çılpaq adamlar görəcəksən" ("ölkə istidir"). "Bizə ancaq səbr və bilik verilib" deyən, "yatağı yer, örtüyü göy" olan brahmanlar əkib-biçmir, təbiətin verdiyi nemətlərlə kifayətlənir, ziyafət keçirmirlər.

İsgəndər "Dünyanın kənarından Kirmana yetdi" (3021), sonra Kirmanşaha, oradan Babilə gəldi və xəstələndi. "Qüvvətli adam zəifliyə üz qoydu" (3067), "Gözlərini yumdu və özündən xəbərsiz əbədi yuxuya getdi" (3159).

## Nəticə

Nizami mütəfəkkir şairdir. Nizami`nin "Xəmsə" adı altında birləşmiş beş roman-poeması şərq ədəbiyyatının sonrakı inkişafına həlledici təsir göstərmişdir. Nizami poemalarının gücünü müəyyən edən göstəricilər arasında şairin poetik qüdrəti, nəzm qabiliyyəti çox

[45] Бертельс Е.Э. 1981. *Политические взгляды Низами.* Bax: *Выдающиеся русские ученые и писатели о Низами Гянджеви.* Bakı: Yazıçı. səh 52.

mühüm olsa da, Nizami`nin geniş dünyagörüşü və maraqlı həyat fəlsəfəsi də eyni dərəcədə mühümdür. Nizami təbiət elmləri ilə, xüsusilə astronomiya və əlkimya ilə yaxşı tanış idi, əsərlərində həm təbiətşünaslığa aid biliklərdən istifadə edir, həm də onlardan ustalıqla istifadə edib güclü metaforlar yaradır. Nizami yunan, hind və islam fəlsəfəsinə aid müəyyən bilik sahibi idi. Nizami`nin musiqi, din və psixologiya barədə geniş təsəvvürü olmuş, əsərlərində onları səmərəli surətdə işlətmişdir.

Nizami`nin baş mövzuları sevgi, yaxşı insan və ədalətli hökmdardır. "Xosrov və Şirin" və "Leyli və Məcnun" sevgi üzərində qurulmuşdur, lakin Xosrovun yanlışları və onu ədalətli olmağa çağıran motivlər də əsərdə mühüm yer tutur. "Yeddi gözəl"də, zənnimcə, baş mövzuların hər biri təmsil olunmuş və onlar bir-birinə qovuşmuşlar. Nizami`nin son və həcmcə ən böyük əsəri – "İsgəndərnamə"nin əsas mövzusu ədalətli hökmdardır, digər mövzular nisbətən az yer tutur, müstəqil gücə malik deyil, baş mövzudan asılı vəziyyətdədir. Dünya fatehi İsgəndər Daranın qızı ilə evlənir və... onu yanında saxlamır, vətənə – Ruma göndərir. Hind hökmdarı Keyd`in qızı ilə də eynilə rəftar edir. Dünyanı gəzən fateh vaxtını qadınlara sərf etmək istəmir. Çin xaqanı`nın bəxş etdiyi çinli gözəl kənizi unudur, yalnız ruslarla savaş zamanı bu qızın igidliyini görüb ona vurulur, onunla şənlənir. Nizami dirilik suyu əldə edə bilməyən İsgəndəri "İsgəndərnamə" ilə "ölümsüzləşdirdim" deyir, lakin eşqin tərənnümündə əvəzsiz olan şair çinli kənizin dili ilə sevginin həyati vacibliyini vurğulayır, sevginin dirilik suyunu əvəz edə biləcəyini irəli sürür:

*İsgəndər səhv olaraq dirilik çeşməsinə gedir*
*Mən burdayam, İsgəndər haraya gedir?!* ("Şərəfnamə", 6374)

"Xəmsə" qəhrəmanlarının çoxu hökmdarlardır, onlar fəth məqsədilə yürüş edirlər. Bəzən, məsələn, "Xosrov və Şirin"də fəth deyil, sevgi arxasınca səfərlər üstünlük təşkil edir. İstənilən halda, yürüş və səfərlərin coğrafiyası Nizaminin dünya coğrafiyası barədə çox geniş təsəvvürə malik olduğunu göstərir. Nizami ayaq basılan məkanın adını çəkməklə kifayətlənmir, o yerin təbiəti, əhalisi və adət-ənənələri haqqında danışır.

Nizami öz ədalətli hökmdar idealını "İsgəndərnamə"də yaratdı. Nizami`nin İsgəndər surəti tarixi Makedoniyalı Aleksandr`ın həyat tarixçəsi ilə qidalansa da, ədəbi qəhrəmanla gerçək sərkərdə və hökmdar arasında böyük fərq var. Nizami`nin iki hökmdar qəhrəmanı – Xosrov və Bəhram İran şahlarıdır, onların həyatı İran daxilində və ya İranın yaxın ətrafında keçir, səfərləri də eyni məkanda baş verir. İsgəndər isə dünya hökmdarıdır, o, tarixi Makedoniyalı Aleksandr`dan qat-qat çox ölkələrə yürüş edir. Nizami öz sərkərdə, hökmdar və peyğəmbər qəhrəmanını məlum dünyanı dolaşmağa, fəth etməyə qərarlaşdırır. Nizami`nin İsgəndər`i "adi" peyğəmbər deyil, dünya peyğəmbəridir. Bu nə deməkdir? Musa, İsa və Məhəmməd peyğəmbər hər biri bir ümmətin – uyğun olaraq yəhudilərin, xristianların və müsəlmanların peyğəmbəri sayılırlar. Sərkərdə və hökmdar kimi dünyanın sahibi olan İsgəndər`ə isə Tanrı "dünyaya peyğəmbərlik et" deyir. Peyğəmbərliyi alan İsgəndər`in ilk fikri dünya səyahətinə çıxmaq olur.

Nizami İsgəndər`i dünyada gəzdirir və getdiyi hər yerə nə üçün getdiyini izah edir. Bu yolda Nizami bilə-bilə tarixi anaxronizmlərə yol verir, İsgəndər`i Makedoniyalı Aleksandr dövründə tarix səhnəsində görünməyən xalqlarla görüşdürür, onu Aleksandrın heç vaxt getmədiyi yerlərə göndərir. İsgəndər Qafqaza, Nizami`nin vətəni Gəncə yaxınlığındakı Bərdə şəhərinə gəlir, o, Bərdə hökmdarı Nüşabə xanımla dostlaşır. Və sonralar Bərdəni talan edən və Nüşabəni əsir götürən ruslarla savaşa girir, çətinliklə olsa da, qalib gəlir. İsgəndər Çinə gedir, qıpçaq türkləri ilə qarşılaşır. Bunlar tarixi anaxronizmlərdir.

Nizami İsgəndər`in ətrafına yeddi filosof cəm edir, onlar İsgəndər`lə birlikdə dünyanın müəmmaları üzərində düşünür, müzakirə aparırlar. Əslində isə, bu filosoflardan yalnız biri – Ərəstu

(Aristotel) Makedoniyalı Aleksandrla görüşmüş, ona dərs demişdir, digər filosofları İsgəndər`dən yüzilliklər ayırır (əvvələ və sonraya).

Nizami öz İsgəndər`ini bir cahan hökmdarı kimi təqdim edir və onu məlum dünyanı gəzməyə göndərir. Avropada Əfrəncə (Firəng diyarı) və müsəlmanlara məlum olan Əndəlüsə gedən İsgəndər Afrikada Misirə, Məğribə, yəni, Misirdən qərbdə yerləşən Şimali Afrika torpaqlarna, Misirdən cənubda yerləşən və qara Afrikanı təmsil edən Həbəşistan və Zəngibara gedir. Nizami İsgəndər`i Nil çayının mənbəini tapmağa yönəldir; bu, sanki məlum Afrikanın və ümumiyyətlə, məlum dünyanın cənub nöqtəsidir. İsgəndər gəmi ilə Okyanus`da (Atlantik okeanında) və Çin dənizində (Sakit okeanda) dünyanın sonuna, ucuna gedir ("burdan o tərəfə getmək mümkün deyil"). Nəhayət, İsgəndər dirilik suyu əldə etmək üçün dünyanın şimal nöqtəsinə – qaranlıq diyara, Şimal dənizinə gedib çıxır. Nizami öz qəhrəmanı İsgəndər qarşısında dünyanı gəzmək, fəth etmək, dünyada ədaləti bərpa etmək vəzifəsi qoymuş və bu yolda, bu məqsədlə öz dünya coğrafiyasını və tarix fəlsəfəsini yaratmışdır.



*Vaqif Ucatay. "Nizami işığında", Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*

(*Son*)

## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI GÖRKƏMLİ MAARİFÇİ ÖMƏR FAİQ NEMANZADƏNİN 150 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ VERİLİŞDƏ

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI IN THE PROGRAM DEDICATED TO THE 150TH ANNIVERSARY OF OUTSTANDING EDUCATOR OMAR FAIG NEMANZADE

2022-ci il noyabrın 23-də Mədəniyyət TV-də yayımlanan "Deməli" tok-şousunda Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, maarifçi, publisist, pedaqoq Ömər Faiq Nemanzadənin 150 illik yubileyi münasibətilə onun həyat və fəaliyyətindən bəhs edildi.

Verilişdə xüsusi dəvət olunmuş qonaqlar - Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik Hamlet İsaxanlı, tarix elmləri doktoru, professor Solmaz Tohidi, Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva iştirak etdilər. Verilişdə Ö. F. Nemanzadənin Azərbaycanda təhsil, maarifçilik, dilçilik sahəsindəki töhfələri, həmçinin, ictimai-siyasi fəaliyyəti müzakirə olundu.

Verilişə bu link vasitəsilə baxmaq olar:

On November 23, 2022, the talk show "Deməli" aired on Mədəniyyət TV (Culture TV) talked about the life and activities of the outstanding socio-political figure of Azerbaijan, educator, publicist, educator Omar Faig Nemanzadeh on the occasion of his 150th anniversary.

Specially invited guests in the program - founder of Khazar University, chairman of the Board of Directors and Trustees, doctor of physical and mathematical sciences, professor, academician Hamlet Isakhanli, doctor of historical sciences, professor Solmaz Tohidi, leading researcher of the Nizami Institute of Literature, doctor of philosophy Gulbeniz Babayeva participated in the program. The program discussed O.F. Nemanzade's contributions in the field of education, enlightenment, linguistics, as well as his social and political activities in Azerbaijan.

The program can be watched through this link:

https://www.youtube.com/watch?v=H-crwcLrigg

## “XƏZƏR”İN ƏMƏKDAŞI AZTV-NİN “GÜN BAŞLADI” VERİLİŞİNDƏ

## KHAZAR UNIVERSITY STAFF MEMBER ON AZTV'S "THE DAY HAS STARTED" PROGRAM

2022-ci il noyabrın 29-da AZTV kanalında Xədicə Sənanqızı və Elnur Kərimovun təqdimatında yayımlanan "Gün başladı" verilişinin qonağı Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova oldu.

Verilişdə “Hüzurlu olmaq” mövzusu haqqında geniş müzakirə aparıldı. Xüsusilə də Covid-19 və müharibə dönəmlərindən sonra Azərbaycan xalqının hüzura ehtiyacı olduğunun və bunun üçün xüsusi dəstəyin önəmi üzərində dayanıldı.

Verilişə baxmaq üçün link:

Malak Karimova, coordinator of the Psychology Department of Khazar University, was the guest of the program "The Day Has Started" presented by Khadija Sanangizi and Elnur Karimov on AZTV on November 29, 2022.

In the program, there was a wide discussion about the theme of "Being peaceful". Especially after the times of Covid-19 and war, it was emphasized that the people of Azerbaijan need peace and the importance of special support for this.

Link to watch the program:

https://www.youtube.com/watch?v=Hc8NGPn_yNE

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ İCTİMAİ TELEVİZİYANIN VERİLİŞİNDƏ

## FACULTY MEMBER OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT IN TV PROGRAM

İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova 2022-ci il dekabrın 14-də İctimai televiziyada “Dik daban” verilişinin qonağı olmuşdur. O, “Dünyanın 254 ən fəal qadınlarından biri” adlı layihə ilə bağlı maraqlı xatirələrini bölüşdü və bir saat müddətində adı qeyd olunmuş layihədən əlavə müəllimlik sənəti və tərcümə etdiyi kitablarda qarşıya çıxan çətinliklərdən söhbət açdı və maraqlı məqamları tamaşaçılarla bölüşdü.

Veriliş aşağıdakı linkdə:

On December 14, 2022, Firangiz Nasirova, the head teacher of the English Language and Literature Department, was a guest of the "Dik daban" program on Public TV.

She shared her interesting memories about the project called "One of the 254 most active women in the world" and for an hour, in addition to the mentioned project, she talked about the art of teaching and the difficulties encountered in the books she translated and shared interesting moments with the audience.

The program is available at the following link:

https://www.youtube.com/watch?v=I_ghVlu41dc&t=6s

# TƏLƏBƏLƏRİN XARİCİ
# FOREIGN TRIP IMPRESSIONS



BSM upf. Barcelona School of Management

*İqtisadiyyat və menecment fakültəsi Maliyyə ixtisasının 4-cü kurs tələbələri Şəfəq Qasımova və Xəqan Nurullayev UniLab layihəsi çərçivəsində xarici səfərdə olublar. Təəssüratlarını oxucularla bölüşürlər.*

## Şəfəq Qasımova:

- Universitetimizin bir qrup əməkdaşı ilə İspaniyada Barselona Menecment Məktəbində (Barcelona School of Management) oldum. Məni həm təhsil qaydaları, həm də turistik yerlər maraqlandırırdı. Unilab layihəsinin ümumi komandası ilə fikirlərimizi bölüşdük və maraqlı söhbət etdik. Müxtəlif millətlərdən olan tələbələrin eyni mövzu ilə bağlı müxtəlif fikirlərini bir yerdə eşitmək çox maraqlı idi.

Barselona Menecment Məktəbinin müxtəlif korpuslarında olduq. Tələbələr üçün gözəl şərait yaradılmışdı. Müasir dizaynlı böyük tamaşaçı zalları var idi. Kitabxanada diqqətimi cəlb edən kitab fondunun zənginliyi və bütün oxu zallarının tələbələrlə dolu olması idi.

Universiteti yenicə bitirmiş tələbələrin müasir bazarın tələblərinə uyğunlaşması üçün onlar təhsil müddətində müəyyən bacarıqlara, həm də ünsiyyət qabiliyyətinə yiyələnməlidirlər. Karyera və inkişaf mərkəzləri iş bazarı ilə tələbələr arasında körpü rolunu oynayır. Bu layihə çərçivəsində tələbələrin əmək bazarına çıxış imkanlarının müəyyənləşdirilməsində karyera mərkəzlərinin rolunu bir daha dərk etdik.

Unilab layihəsinin təşkil etdiyi silsilə mühazirələrdə ölkəmizin komandası ilə iştirak etdik. Bu mühazirələrin sonunda qrup işi və fikir mübadiləsi bizim üçün çox faydalı oldu.

Səfər zamanı tarixi-memarlıq abidələrində olduq, İspaniyanın milli mətbəxinin təamlarından daddıq.

## Shafaq Gasimova:

- I visited Barcelona School of Management in Spain with a group of employees of our university. Both educational rules and touristic spots intrigued me. We shared our ideas and had an interesting conversation with the general team of the Unilab project. It was very interesting to hear different opinions of students from different nationalities on the same subject together.

We visited different campuses of the Barcelona School of Management. Excellent conditions were created for the students. There were large auditoriums of modern design. What attracted my attention in the library was the richness of the book collection and the fact that all the reading rooms were full of students.

For graduates to adapt to market demands, they must

acquire certain skills and communication skills during their studies. Career and development centers act as a bridge between the job market and students. Within the framework of this project, we realized once again the role of career centers in determining students' access to the labor market.

Together with the team from our country, we attended a series of lectures organized by the Unilab project. These lectures were very useful to us due to the group work and exchange of ideas at the end.

During the trip, we visited historical-architectural monuments and tasted the dishes of Spain's national cuisine.

# SƏFƏRDƏN TƏƏSSÜRATLARI
# OF STUDENTS



*Shafaq Gasimova and Khagan Nurullayev, 4th-year students of the School of Economics and Management majoring in Finance, went on a foreign trip as part of the UniLab project. They share their impressions with readers.*

## Xəqan Nurullayev :

- Bu, iştirak etdiyim ilk Erasmus+ layihəsi idi. Xəzər Universitetinin bir qrup əməkdaşı ilə Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universitetində keçirdiyimiz 3 günü əla dəyərləndirərdim. Çünki yaxşı təcrübə əldə etdik, yaxşı vaxt keçirdik. Krems kiçik bir şəhər olsa da, eyni zamanda müasirliyi və tarixi memarlığı özündə birləşdirir. Buna sübut olaraq, müasir tikililəri, elektromobillər üçün enerji doldurma stansiyalarını və tarixi binaları nümunə göstərə bilərik.

Layihə zamanı universitet şəhərciyi və onun şəraiti ilə tanış olduq. Universitet tələbələr üçün gözəl şərait yaratmışdır, rəqəmsal dünya ilə tanış olmağa imkan verən çox bahalı VR texnologiyasına malikdir. Bizim də VR texnologiyasını təcrübədən keçirmək şansımız oldu və bu heyranedici idi.

Universitetində tədris olunan ixtisaslardan birinin də "Şərab biznesi" olduğunu eşidəndə, bu bizə çox maraqlı gəldi. Sonra öyrəndik ki, iqlim burada üzüm bağlarının salınmasına çox əlverişli şərait yaradır. Əhali dağ yamaclarında pilləkənə bənzər terras quraraq, üzüm bağları salır.

Vurğulamaq istərdim ki, görüş zamanı universitetin Karyera mərkəzi məzunlarının işlə təmin olunması ilə bağlı statistik məlumatları açıqlayanda, bu rəqəm təxminən 100%-ə bərabər idi. Ümid edirəm ki, Xəzər Universiteti də öz Karyera mərkəzinin səyləri və araşdırmaları ilə eyni nəticəni əldə edəcək.

Səfər zamanı müəyyən təcrübə qazandıq, unudulmaz günlər keçirdik.

*Hazırladı*: **Jalə Rzayeva**,
*Layihə meneceri, Xəzər Universiteti*

## Khagan Nurullayev:

- This was the first Erasmus+ project I participated in. I would highly appreciate the 3 days we spent at IMC Krems University of Applied Sciences in Austria with a group of Khazar University employees. Because we had a good experience and had a good time. Although Krems is a small town, it combines modernity and historical architecture at the same time. As proof of this, we can show examples of modern buildings, charging stations for electric cars and historical buildings.

During the project, we got acquainted with the university campus and its conditions. The university has created great conditions for students, it has very expensive VR technology that allows you to get acquainted with the digital world. We also got a chance to experience the VR technology and it was amazing.

When we heard that one of the specialties taught at the university was "Wine business", we were very interested. Then we learned that the climate creates very favorable conditions for planting vineyards here. People plant vineyards on the mountain slopes by building terraces like stairs.

I would like to emphasize that during the meeting, when the Career center of the university announced the statistics on the employment of its graduates, this figure was almost 100 percent. I hope that Khazar University will achieve the same result with the efforts and research of its Career Center.

During the trip, we gained some experience and spent unforgettable days.

***Prepared by***: **Jale Rzayeva**,
*Project manager, Khazar University*

## "AİLƏ PSİXOLOGİYASI" FƏNNİNDƏ QONAQ MÜHAZİRƏÇİ

Dekabrın 1-də Psixologiya departamentinin magistr tələbələri üçün (Umumi və kliniki psixologiya ixtisası) seminar təşkil edildi. Departamentin koordinatoru Mələk Kərimovanın tədris etdiyi "Ailə psixologiyası" fənninə Türkiyədə uzun müddət psixiatriya sahəsində fəaliyyət göstərən azırbaycanlı psixoterapevt Dr.Elmir Təhməzov dəvət olunmuşdu. O, "Ailədə görülən cinsi disfunksionallıq" mövzusunda məruzə ilə çıxış etdi. Psixiatr ailədə görülən cinsi problemlər, cinsi istismar, cinsi disfunksionallıq zamanı müdaxilə metodları ilə əlaqədar tələbələrə geniş məlumat verərək, bu sahədə olan son tədqiqatlardan bəhs etdi.

Tələbələrin mövzu ilə əlaqədar çoxlu sualları cavablandırıldı və bu sahə ilə bağlı etik prinsiplərin əhəmiyyətinin üzərində dayanılaraq, ixtisaslaşma meyarlarına toxunuldu.

## GUEST LECTURER IN "FAMILY PSYCHOLOGY" SUBJECT

On December 1, a seminar was organized for graduate students of the Department of Psychology (General and Clinical psychology specialty). Azerbaijani psychotherapist Elmir Tahmezov, who has been working in the field of psychiatry for a long time in Turkey, was invited to the "Family psychology" subject taught by the coordinator of the department, Melek Karimova. He gave a speech on "Sexual dysfunction seen in the family". The psychiatrist gave detailed information to the students about sexual problems in the family, sexual abuse, and methods of intervention during sexual dysfunction, and talked about the latest research in this field.

Many questions of the students related to the topic were answered, and the criteria for specialization were touched upon, emphasizing the importance of ethical principles related to this field.




## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM OLUNUB

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Cabir Məmmədliyə fəlsəfə üzrə fəlsəfə doktoru diplomu təqdim olunub. AAK-ın qərarı ilə ona Fəlsəfə (7211.01 –Estetika) ixtisası üzrə fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Qeyd edək ki, Cabir Məmmədli AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Dissertasiya Şurasında "Estetikada faciəvilik" mövzusunda dissertasiya müdafiə etmişdir.

## THE LECTURER OF THE DEPARTMENT OF LANGUAGES AND LITERATURES WAS PRESENTED WITH A PHD DIPLOMA

On December 2, at the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, Jabir Mammadli, the lecturer of the Department of Languages and Literatures of Khazar University, was presented with a doctor of philosophy diploma. By the decision of the HAC, he was awarded the scientific degree of Doctor of Philosophy in Philosophy (7211.01 – Aesthetics).

Note that Jabir Mammadli defended his dissertation on "Tragicism in Aesthetics" at the Dissertation Council of the Institute of Philosophy and Sociology of ANAS.

## TƏLƏBƏLƏR BETİ-DƏ

Dekabrın 2-də Xəzər Universiteti Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə təhsil alan 2-ci kurs tələbələrinin digər qrupu Baytarlıq Elmi-Tədqiqat İnstitutu (BETİ) və onun nəzdindəki Baytarlıq klinikasında oldular.

BETİ əməkdaşları institutun strukturu, fəaliyyəti, laboratoriyaları, tədqiqat istiqamətləri barədə məlumat verdilər. Sonra tələbələr institututun laboratoriyalarında aparılan elmi-tədqiqat işləri, müasir cihaz və avadanlıqların iş prinsipləri, kitabxana ilə tanış oldular. Onlar, həmçinin, heyvan mənşəli toxumalardan bakterioloji analiz üçün nümunələrin götürülməsi, boyanması və mikroskopik müayinəsi işlərini həyata keçirdilər.

Baytarlıq klinikasında əməkdaşlar tərəfindən it və pişiklərin müayinəsi, qanın ümumi və biokimyəvi analizi, USM və s. işlərlə də yaxından tanış oldular. Klinikanın təlim otağında tələbələrin sualları cavablandırıldı.

## STUDENTS AT VETERINARY RESEARCH INSTITUTE

On December 2, another group of 2nd-year students studying Veterinary Medicine of the Khazar University Life Sciences Department visited the Veterinary Research Institute and the Veterinary Clinic attached to it.

Employees of Veterinary Research Institute informed about the institute's structure, activities, laboratories, and research directions. Then the students got acquainted with the scientific-research works carried out in the laboratories of the institute, the working principles of modern devices and equipment, and the library. They also performed sampling, staining and microscopic examination of animal tissues for bacteriological analysis.

They got acquainted with the examination of dogs and cats, general and biochemical analysis of blood, USM and other work by the employees of the veterinary clinic. Students' questions were answered in the training room of the clinic.



## TƏLƏBƏLƏRLƏ PRAKTİKİ DƏRS

Dekabrın 2-də Xəzər Universitetinin Neftçilər korpusunda AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnistutunun elmi işçisi rəssam-arxeoloq Vəfa Həsənova Tarix və coğrafiya müəllimliyi ixtisasının tələbələrinə açıq dərs keçdi.

Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə baş tutan dərsdə müəllimlər ilə tələbələr arasında əhatəli şəkildə müzakirələr aparıldı.

## PRACTICAL LESSON WITH STUDENTS

On December 2, artist-archaeologist Vafa Hasanova, the researcher of the Institute of Archaeology, Ethnography and Anthropology of ANAS, gave an open lesson to the students majoring in history and geography teaching at the Neftchilar campus of Khazar University.

In the lesson organized by the lecturer of the History and Archeology department, Orkhan Zamanov, an informal discussions between teachers and students were held.




# XƏZƏR UNİVERSİTETİ BƏDİİ ƏDƏBİYYATDA

Tədqiqatçı-yazar Elvin Arifoğlunun "Sükutla danışanlar" kitabının təqdimatı

# KHAZAR UNIVERSITY IN FICTION

Presentation of a book "Speakers of Silence" by the researcher-writer Elvin Arifoghlu

Dekabrın 2-də Xəzər Universitetinin Mərmər salonunda gənc tədqiqatçı-yazar Elvin Arifoğlunun "Sükutla danışanlar" kitabının təqdimatı oldu. Təqdimatı giriş sözü ilə İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli açaraq, gənc yazarın həyat və yaradıcılığı, yeni çapdan çıxmış əsəri haqqında salondakılara geniş məlumat verdi. Ə.Əmirbəyli əsərin qəhrəmanları olan - Xəzər Universitetinin Mühəndislik və Tətbiqi elmlər fakültəsinin tələbələri Fəri və Məhəmməd obrazları haqqında, həmyaşıdlarının gördüyü işlərdən danışdı.

Sonra söz yazar Elvin Arifoğluya verildi. Yazar əsərin hasilə gəlməsi ilə əlaqədar maraqlı məqamlardan söz açdı.

Təqdimat mərasimində Xəzər Universitetinin rektoru İradə Xəlilova, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova, Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli və digərləri çıxış edərək, əsər haqqında fikirlərini bildirdilər. Yazar E.Arifoğlu imzalı kitablarını oxucularına təqdim etdi.

Həmin gün gənc tədqiqatçı-yazar Elvin Arifoğlu Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şyrasının sədri professor, akademik Hamlet İsaxanlının qəbulunda oldu.

H.İsaxanlı "Sükutla danışanlar" kitabının müəllifinə Xəzər Universitetinin tələbələrini əsərin əsas obrazları kimi seçdiyinə görə təşəkkürünü bildirdi. Yazar Hamlet İsaxanlıya həyatı haqqında geniş məlumat verdi, təqdimat tədbirinə görə minnətdarlıq etdi.

On December 2, the book "Speakers of Silence" by young researcher-writer Elvin Arifoghlu was presented in the Marble Hall of Khazar University. Director of Public Relations and Media Alovsat Amirbeyli opened the presentation event with an introductory speech, and gave detailed information to the audience about the life and creativity of the young writer, as well as his newly published work. A. Amirbeyli talked about the heroes of the work - the students of Khazar University's School of Engineering and Applied Sciences, Fari and Muhammad, and the work done by their peers.

Then the floor was given to the writer Elvin Arifoglu. The author spoke about interesting moments related to the creation of the work.

At the presentation event, Irada Khalilova, rector of Khazar University, Dilbar Zeynalova, head of the Department of Languages and Literatures, Aytac Misgarli, deputy director of the Library Information Center, and others spoke and expressed their opinions about the work. Author E.Arifoghlu presented his books to his readers.

On that day young researcher-writer Elvin Arifoghlu met with Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees.

H. Isakhanli expressed his gratitude to the author of the book "Speakers of Silence" for choosing the students of Khazar University as the main characters of the work. The author thanked Hamlet Isakhanli for the presentation event.











# "DİL, ƏDƏBİYYAT VƏ DİLÇİLİK FƏLSƏFƏSİ" ÜZRƏ ÜÇÜNCÜ BEYNƏLXALQ KONFRANS

# THE 3RD INTERNATIONAL CONFERENCE ON THE PHILOSOPHY OF LANGUAGE, LITERATURE AND LINGUISTICS






Dekabrın 2-3-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə təşkilatçılığı ilə "Dil, Ədəbiyyat və Dilçilik Fəlsəfəsi" üzrə Üçüncü Beynəlxalq Konfrans (ICPL 2022) hibrid formatda keçirildi. Konfransda yer almış məqalələrin bir hissəsi Azərbaycan, digər qismi isə Türkiyə, İran, Pakistan, Qazaxıstan, İtaliya, Fransa, Malayziya və Belarus tədqiqatçıları tərəfindən göndərilmişdi.

Konfransın açılış mərasimi İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi, fil.ü.f.d. Milana Abbasovanın salamlama nitqi ilə başladı. Universitetinin rektoru dosent İradə Xəlilova çıxış edərək, konfransın əhəmiyyətindən danışdı və iştirakçılara uğur dilədi. Sonra universitetin rəqs ansamblının ifasında milli rəqslər təqdim olundu.

Daha sonra əsas natiqlər - Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, Bakı Slavyan Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının müdiri və konfransın həmsədri professor Rəhilə Qeybullayeva çıxış etdilər; Dr. Davud Kuhi (İslam Azad Universiteti, Şərqi Azərbaycan, İran) və Dr. Antonio Taqlialatella (Bazilikata Universiteti, İtaliya) onlayn formatda konfrans iştirakçılarını salamlayaraq, nitq söylədilər. Açılış mərasiminin sonuncu natiqi Xəzər Universitetin İngilis dili və ədəbiyyatı departamentinin professoru Huseynağa Rzayev idi.

Açılış mərasimi bitdikdən sonra hər birində 4-5 panel olmaqla iki sessiyada müxtəlif universitetlərdən olan tədqiqatçılar çıxış etdilər.

On December 2-3, the "The third International Conference on the Philosophy of Language, Literature and Linguistics, ICPL2022 (ICPL 2022)" was held in a hybrid format under the joint organization of Khazar University English Language and Literature Department and Azerbaijan Comparative Literature Association. Some of the articles included in the conference were sent by researchers from Azerbaijan, and others from Turkey, Iran, Pakistan, Kazakhstan, Italy, France, Malaysia and Belarus.

The opening ceremony of the conference began with the welcome speech of Milana Abbasova, PhD in Philology, acting head of the Department of English Language and Literature. Rector of the university, associate professor Irada Khalilova, spoke about the importance of the conference and wished success to the participants. Then national dances performed by the university's dance ensemble were presented.

Later, the key note speakers - the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the head of the department of Azerbaijani literature of Baku Slavic University and the co-chair of the conference, professor Rahila Geybullayeva, delivered speeches. Other key note speakers Dr. Davud Kuhi (Islamic Azad University, East Azerbaijan, Iran) and Dr. Antonio Taglialatella (University of Basilicata, Italy) welcomed the participants of the conference in online format and made speeches. The last key note speaker of the opening ceremony was Huseynaga Rzayev, professor of the English Language and Literature Department of Khazar University.

Konfransın 2-ci günü Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans - Konsert Salonunda baş tutdu. Bağlanış mərasimindən sonra departamentin müəllimi Rəna Özenin tələbələrlə birgə hazırladığı tamaşa göstərildi. Tamaşa Paulo Koelhon`un "Əlkimyagər" adlı əsəri əsasında hazırlanmışdı. Tamaşaya baxdıqdan sonra konfrans iştirakçıları Atəşgah Dövlət Tarix Memarlıq Qoruğunu ziyarət etdilər.

After the opening ceremony, researchers from different universities spoke in two sessions with 4-5 panels each.

The 2nd day of the conference took place in the Fikret Amirov Conference-Concert Hall on the Downtown campus of Khazar University. After the closing ceremony, the performance prepared by the lecturer of the department, Rena Ozen, together with the students was demonstrated. The performance was based on the work of Paulo Coelho called "The Alchemist". After watching the performance, the conference participants visited the Ateshgah State Historical Architectural Reserve.









## JURNALİSTLƏR VƏ JURNALİSTİKA İXTİSASI ÜZRƏ TƏHSİL ALAN TƏLƏBƏLƏR ÜÇÜN TƏLİM: "AVROPA İTTİFAQI NECƏ İŞLƏYİR?"

Dekabrın 3-4-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə media sahəsində çalışan şəxslər və müxtəlif ali təhsil müəssisələrində jurnalistika ixtisası üzrə təhsil alan tələbələr üçün "Avropa İttifaqı necə işləyir?" mövzusunda təlim təşkil olunmuşdur.

Erasmus+ Jean Monnet Module layihəsi çərçivəsində baş tutan 2 günlük təlimlərdə Xəzər Universitetinin müəllimləri Elmar Mustafayev və Zibər Hüseynova tərəfindən Avropa İttifaqının strukturu, institutları (Avropa İttifaqı Şurası, Avropa Komissiyası, Avropa Parlamenti, Avropa Nazirlər Şurası və Avropa Ədalət Məhkəməsi), İttifaqın və üzvdövlətlərin səlahiyyətləri, eləcə də vətəndaşların qərarvermə prosesində iştirakı barəsində ətraflı məlumat verilmişdir.

40-dan çox jurnalist və jurnalistika ixtisasında oxuyan tələbələrin qatıldığı tədbirin sonunda bütün içtirakçılara sertifikat və Avropa İttifaqı haqqında yazılmış oxu materialı verilmişdir.

## WORKSHOP FOR JOURNALISTS AND STUDENTS MAJORING IN JOURNALISM ON "HOW DOES EU WORK?"

On December 3-4, the Political Science and Philosophy Department of Khazar University organized a two-day workshop on European Union for journalists of different media representatives and students majoring in Journalism.

Organized within the Erasmus+ Jean Monnet Module, the workshop entitled "What is the EU and how does it work?" discussed the historical evolution, institutions (European Council, European Commission, European Parliament, Council of the European Union, Court of Justice) of the Union and its complex decision-making system.

Following the workshop, attended by more than 40 journalists and Journalism students, were given didactic material on European Union – co-authored by Academic Coordinators of Erasmus+ Jean Monnet Module Elmar Mustafayev and Zibar Huseynova. Moreover, participants of the workshop were awarded a certificate of attendance.

## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI GÖRKƏMLİ BƏSTƏKAR SƏRDAR FƏRƏCOVUN MÜƏLLİF KONSERTİNDƏ

Dekabrın 9-da Azərbaycan Milli Konservatoriyasında görkəmli bəstəkar, Üzeyir Hacıbəylinin Ev Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcovun 65 illik yubileyinə həsr olunmuş konsert keçirilib. Tədbirdə Azərbaycan Respublikası mədəniyyət naziri Anar Kərimov, Milli konservatoriyanın rektoru professor Siyavuş Kərimi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və musiqi ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirin birinci hissəsində natiqlər çıxışlarında Sərdar Fərəcovun həyat və yaradıcılığı barədə danışaraq, yubileyi münasibətilə onu təbrik etmişlər. Hamlet İsaxanlı öz çıxışında Sərdar Fərəcovun Xəzər Universiteti ilə əməkdaşlığından, həmçinin özü ilə bəstəkar arasındakı yaradıcılıq işindən bəhs etmişdir.

Tədbirin ikinci hissəsi Sərdar Fərəcovun musiqisindən ibarət konsertlə başa çatmışdır.

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT THE AUTHOR'S CONCERT OF OUTSTANDING COMPOSER SARDAR FARAJOV

On December 9, a concert dedicated to the 65th anniversary of the outstanding composer, director of Uzeyir Hajibeyli's House Museum, People's Artist Sardar Farajov was held at the Azerbaijan National Conservatory. Minister of Culture of the Republic of Azerbaijan Anar Karimov, rector of the National Conservatory professor Siyavush Karimi, founder of Khazar University, chairman of the Board of Directors and Trustees professor, academician Hamlet Isakhanli and members of the music community took part in the event.

In the first part of the event, the speakers talked about the life and work of Sardar Farajov and congratulated him on his jubilee. In his speech, Hamlet Isakhanli talked about Sardar Farajov's cooperation with Khazar University, as well as their creative work together.

The second part of the event ended with a concert of Sardar Farajov's music.

# “MƏNİM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ” KİTABININ BAKI AVRASİYA UNİVERSİTETİNDƏ TƏQDİMATI

# PRESENTATION EVENT OF "MY KARABAKH OR KARABAKH KNOT" BOOK AT BAKU EURASIAN

Dekabrın 14-də professor, akademik Hamlet İsaxanlının “Mənim Qarabağım və ya Qarabağ düyünü” kitabının Bakı Avrasiya Universitetində təqdimatı keçirilib. Tədbiri Bakı Avrasiya Universitetinin Ümumi filologiya kafedrasının müdiri, filologiya elmləri doktoru, dosent Elmira Məmmədova-Kekeç açdı. Qonaqları salamladıqdan sonra sözü “Oxucular klubunun” rəhbəri tələbə Leyla Səfərliyə verdi. Leyla Səfərli Hamlet İsaxanlının ömür yolu və yaradıcılığı haqqında geniş məlumat verdi.

Sonra professor Ədalət Tahirzadə kitab haqqında təəssüratlarını bölüşdü. Kitabın Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün olduqca səmərəli vasitə olduğunu qeyd etdi. Dosent Seyfəddin Altaylı tələbələrə xitabən kitabın hər bir Azərbaycan gənci tərəfindən oxunmalı olduğunu və Qarabağ hadisələri haqqında kitabda kifayət qədər geniş məlumatların toplandığını vurğuladı.

Çıxışlardan sonra tələbələrin maraqlı suallarını cavablandıran H. İsaxanlı “Bu da həyatdır” adlı şeirini oxudu. Tədbirin sonunda Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova təşkilatçılara və tələbələrə təşəkkür etdi və H.İsaxanlının “Baş açmadım bu dünyadan” şeirini səsləndirdi. Sonda H.İsaxanlı kitab hədiyyə etdi.

On December 14, the presentation of the book "My Karabakh or the Karabakh Knot" by professor, academician Hamlet Isakhanli was held at Baku Eurasian University. The event was opened by the head of the Department of General Philology of Baku Eurasian University, doctor of philological sciences, associate professor Elmira Mammadova-Kekech. After greeting the guests, she gave the floor to student Leyla Safarli, head of the "Readers' Club". Leyla Safarli gave detailed information about Hamlet Isakhanli's life and creativity.

Then Professor Adalat Tahirzadeh shared his impressions about the book. He noted that the book is a very effective tool for conveying the truths of Karabakh to the world. Addressing the students, associate professor Seyfeddin Altayli emphasized that the book should be read by Azerbaijani youth and that the book contains quite a lot of information about the events of Karabakh.

After the speeches, H. Isakhanli, who answered interesting questions from students recited his poem "This is a life as well". At the end of the event, associate professor Dilbar Zeynalova, head of the Department of Languages and Literatures of Khazar University, expressed her gratitude to the organizers and students and recited H. Isakhanli's poem “I did not understand this world". At the end, H. Isakhanli presented his book to the participants.





## XƏZƏR UNİVERSİTETİ VƏ TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTUNUN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ BEYNƏLXALQ ELMİ KONFRANS

## AN INTERNATIONAL SCIENTIFIC CONFERENCE UNDER THE JOINT ORGANIZATION OF KHAZAR UNIVERSITY AND INSTITUTE OF SOIL SCIENCE AND AGROCHEMISTRY

Dekabrın 5-də Xəzər Universitetinin Mərmər salonunda Xəzər Universiteti və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun birgə təşkilatçılığı ilə "Torpaq elmi: dünəni, bu günü və sabahı" adlı beynəlxalq elmi konfrans keçirilib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı giriş sözü ilə konfransı açaraq, dünyada torpaqşünaslıq elminin bu gün həyatda mühüm rolundan danışdı, konfrans iştirakçılarını "5 dekabr Dünya Torpaq Günü" münasibətilə təbrik edib.

Konfransın plenar iclasında Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əlövsət Quliyev "Azərbaycanda torpaq elminin dünəni, bu günü, sabahı" adlı məruzəsində torpaqların bu günkü vəziyyəti, rast

On December 5, an international scientific conference called "Soil Science: Yesterday, Today and Tomorrow" was held in the Marble Hall of Khazar University, jointly organized by Khazar University and the Institute of Soil Science and Agrochemistry.

Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, opened the conference with an introductory remarks, spoke about the important role of soil science in the world today, and congratulated the conference participants on the occasion of "December 5 World Soil Day".

At the plenary session of the conference, the general director of the Institute of Soil Science and Agrochemistry, corresponding member of ANAS, Alovsat Guliyev, spoke about the current state of soils, encountered problems and ways to overcome them in his report "Yesterday, Today, Tomorrow

gəlinən problemlər və onların aradan qaldırılması yollarından söz açdı. Ə.Quliyev Azərbaycanda torpaq və su ehtiyatlarından istifadə vaxtı nöqsanlar və onların aradan qaldırılması yolları haqda geniş məlumat verdi.

of Soil Science in Azerbaijan". A. Guliyev gave detailed information about the deficiencies in the use of land and water resources in Azerbaijan and ways to eliminate them.

At the conference, correspondent member of



Konfransda AMEA-nın müxbir üzvü Amin İsmayılov "Azərbaycanın milli torpaq təsnifatı və rəqəmsal torpaq xəritəçiliyinin inkişaf trendi: problemlər və perspektivlər" və a.e.d Mustafa Mustafayev "Kür-Araz ovalığında suvarılan torpaqların müasir meliorativ vəziyyəti", a.e.ü.f.d Könül Qafarbəyli "Zaqatala rayonunun ekoloji vəziyyətinin tədqiqi və xəritəşdirilməsi" mövzularında məruzələrlə çıxış etdilər. Plenar iclasda, həmçinin,Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, c.ü.f.d Rövşən Abbasovun da çıxışı oldu.

Beynəlxalq elmi konfransın ilk günü "Torpaqların uzaq məsafədən tədqiqi, genezisi, xəritəşdirilməsi və məhsuldarlığın yüksəldilməsi" və "Torpaqların deqredasiyası, aqrokimyası, biologiyası və ekologiyası" adlı iki seksiyada yerli və xarici alimlərin məruzələri ilə başa çatıb.

Konfrans dekabrın 6-da Torpaqşünaslıq və Aqrokimya İnstitutunda işini davam etdirib.

ANAS Amin Ismayilov delivered a speech on "Development trend of Azerbaijan's national soil classification and digital soil mapping: problems and prospects". Mustafa Mustafayev, doctor of agricultural sciences, presented his report on "Modern land reclamation condition of irrigated lands in the Kur-Araz plain", and Konul Gafarbeyli, doctor of philosophy in agricultural sciences made a speech on "Research and mapping of the ecological situation of Zagatala region". Rovshan Abbasov, Ph.D. in geography, head of the Department of Geography and Environment of Khazar University, also delivered a speech at the plenary session. The first day of the international scientific conference ended with reports of local and foreign scientists in two sections: "Soil remote sensing, genesis, mapping and productivity improvement" and "Soil degradation, agrochemistry, biology and ecology".

The conference continues today - December 6 at the Institute of Soil Science and Agrochemistry.

## "SÜKUTLA DANIŞANLAR" KİTABININ TƏQDİMATI

Dekabrın 5-də Bakı "Dünya" Məktəbində tədqiqatçı-yazar Elvin Arifoğlu ilə görüş keçirildi. Görüşü giriş sözü ilə Xəzər Universiteti İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli açaraq, əsərin qəhrəmanları haqqında geniş məlumat verdi. Ə.Əmirbəyli gənc yazarın həyat hekayəsini də salondakılara danışdı. Sonra kitabın müəllifi E.Arifoğlu əsər haqqında iştirakçılara ətraflı məlumat verdi, onların suallarını cavablandırdı.

Məktəbin direktor müavini Mərufə Mədətli, kitabxana müdiri Mədinə Karahan və digərləri çıxış edərək, gənc yazarın həyat hekayəsindən təsirləndiklərini bildirdilər. Sonra E. Arifoğlu iştirakçılara imzalı kitablarını təqdim etdi.

## PRESENTATION OF THE BOOK "SPEAKERS IN SILENCE"

On December 5, a meeting was held with researcher-writer Elvin Arifoglu at Baku "Dunya" School. Khazar University Public Relations and Media Director Alovsat Amirbeyli opened the meeting with an introduction and gave detailed information about the heroes of the work. A. Amirbeyli told the life story of the young writer to the audience. Then the author of the book, E. Arifoglu, gave detailed information about the work to the participants and answered their questions.

The deputy director of the school, Marufa Madatli, the library director Madina Karahan and others spoke and mentioned that they were influenced by the life story of the young writer. Then E. Arifoglu presented his signed books to the participants, memory photos were taken with the students and teachers.








# P&G MƏLUMAT SESSİYASI KEÇİRDİ

Dekabrın 5-də Karyera İnkişaf Mərkəzinin təşkilatçılığı ilə P&G tərəfindən məlumat sessiyası keçirildi. Sessiyada P&G şirkətinin Qafqaz və Orta Asiya Respublikaları üzrə Distribüter əməliyyatları direktoru Fərid Əlizadə, Kategoriya üzrə maliyyə meneceri Gülgəz Həşimova və Ticari marketinq üzrə aparıcı menecer İbrahim İbrahimli iştirak etdilər.

Əvvəlcə Fərid Əlizadə çıxış edərək, şirkət haqqında tələbələrə məlumat verdi. Sonra Gülgəz Həşimova öz təcrübəsini bölüşərək, şirkətin əsas tələb etdiyi bacarıqlar haqqında danışdı. Fərid Əlizadə hal-hazırda aktiv olan təcrübə proqramları və onlara müraciət qaydalarını tələbələrin nəzərinə çatdırdı. Sessiyanın sonunda isə tələbələrin sualları cavablandırıldı.

# AN INFO SESSION HELD BY P&G

On December 5 at an information session was held by P&G, organized by the Career Development Center. The session was attended by Farid Alizada, Distributor Operations Director, Gulgez Hashimova, Category Finance Manager, and Ibrahim Ibrahimli, Senior Market Strategy and Planning Manager for the Caucasus and Central Asian Republics of P&G.

First, Farid Alizadeh, Distributor Operations Director of the company, gave a speech and informed the students about the company. Later, Category Finance Manager Gulgez Hashimova shared her experience and talked about the skills the company requires. Then the Distributor Operations Director, Farid Alizada, informed the students about the currently active internship programs and how to apply for them.

At the end of the session, students' questions were answered.





## SUMQAYIT "DÜNYA" MƏKTƏBİNDƏ TƏDBİR: "İQLİM DƏYİŞMƏLƏRİ VƏ BİZ"

## EVENT AT SUMGAYIT "DUNYA" SCHOOL: "CLIMATE CHANGES AND WE"





Dekabrın 5-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Sumqayıt "Dünya" məktəbində olmuş, "İqlim dəyişmələri və biz" adlı tədbirdə iştirak etmişdir.

Tədbirdə əvvəlcə məktəbin şagirdləri iqlim dəyişmələrinə aid hazırladıqları təqdimatları nümayiş etdirmişlər. Sonra Rövşən Abbasov "İqlim dəyişmələrinə uyğunlaşma" mövzusunda çıxış etmiş, şagirdlərin fəal iştirakı ilə müzakirələr olmuşdur. Görüşə məktəbin direktoru Çiçək Qaracayeva yekun vurmuşdur.

On December 5, Rovshan Abbasov, head of Khazar University Geography and Environment Department, visited Sumgait "Dunya" school and participated in the event "Climate changes and we".

At the event, the students of the school demonstrated the presentations they prepared on climate change. Then Rovshan Abbasov gave a speech on the topic "Adaptation to climate change", and discussions were held with the active participation of students. The meeting was concluded by the director of the school, Cicek Garacayeva.






# SUMQAYIT “DÜNYA” MƏKTƏBİNDƏ GÖRÜŞ

# MEETING AT SUMGAIT "DUNYA" SCHOOL

Dekabrın 6-da Sumqayıt “Dünya” Məktəbində tədqiqatçı-yazar, “Sükutla danışanlar” əsərinin müəllifi Elvin Arifoğlu ilə görüş keçirildi. Görüşü giriş sözü ilə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq, Elvin Arifoğlu və yeni çapdan çıxmış əsər haqqında məlumat verdi. Sonra o, sözü kitabın müəllifi E.Arifoğluya verdi. E.Arifoğlu əsər haqqında oxuculara geniş məlumat verdi və iştirakçıların suallarını cavablandırdı.

Tədbirdə məktəbin direktoru Çiçək Qaracayeva, müdir müavini Xuraman Nağızadə, Azərbaycan dili və ədəbiyyat müəllimi Könül Əliyeva və digərləri çıxış etdilər.

Sonda gənc yazar Elvin Arifoğlu iştirakçılara imzalı kitablarını payladı, şagird və müəllim kollektivi ilə xatirə şəkilləri çəkildi.

On December 6, a meeting was held with researcher-writer Elvin Arifoglu, author of "Speakers in Silence" at Sumgayit "Dunya" School. Alovsat Amirbeyli, Director of Public Relations and Media of Khazar University, opened the meeting with an introduction and gave information about Elvin Arifoglu and the newly published work. Then he gave the floor to the author of the book, E. Arifoglu. E. Arifoglu gave detailed information about the work to the readers and answered the questions of the participants.

The director of the school Cicek Garacayeva, deputy principal Khuraman Naghizade, teacher of Azerbaijani language and literature Konul Aliyeva and others spoke at the event.

At the end, the young writer Elvin Arifoglu distributed his signed books to the participants, and commemorative photos were taken with the students and teachers.



## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI ADPU-DA İKİLİ TƏHSİL PROQRAMI İLƏ OXUYAN TƏLƏBƏLƏRƏ MÜHAZİRƏ DEMİŞDİR

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI GIVES A LECTURE TO STUDENTS ENROLLED IN THE DUAL EDUCATION PROGRAM OF ASPU

Dekabrın 8-də Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Corc Vaşinqton Universitetinin təşkil etdiyi ikili proqram üzrə təhsil alan tələbələrin qarşısında "Governance and Management in Higher Education" dərsində qonaq mühazirəçi olaraq çıxış edib. O, Azərbaycanda və dünyada ali təhsilin üzləşdiyi çətinliklərdən, inkişaf perspektivlərindən danışıb, tələbələri maraqlandıran sualları cavablandırıb.

Sonda tələbələr məzmunlu və maraqlı mühazirə üçün Hamlet müəllimə təşəkkürlərini bildiriblər.

On December 8, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, delivered a lecture as a guest lecturer at the "Governance and Management in Higher Education" class in front of students enrolled in the dual program organized by Azerbaijan State Pedagogical University and George Washington University.

He spoke about the challenges and development prospects of higher education in Azerbaijan and the world, and answered the questions of students.

In the end, the students expressed their gratitude to Hamlet Isakhanli for the meaningful and interesting lecture.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ "PARAGRAPH WRITING" ADLI YAZI MÜSABİQƏSİ KEÇİRMİŞDİR

Dekabrın 9-da Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində "Paragraph Writing" adlı yazı müsabiqəsi keçirildi. Yazı müsabiqəsində müxtəlif ixtisaslar üzrə bakalavr səviyyəsində təhsil alan 30 tələbə iştirak etdi. Yarışın iştirakçıları seçim mərhələsindən uğurla keçdikdən sonra son mərhələdə 350-400 sözdən ibarət yazı təqdim etdilər.

Öncədən müəyyən edilmiş qiymətləndirmə meyarlarına əsaslanaraq yazıların yoxlanılmasına məsuliyyət daşıyan münsiflər heyəti xarici və yerli mütəxəssislərdən ibarətdir. Müsabiqənin xarici mürəxəssisləri Malayziyanın Sarawak Universitetindən Həmzə Həsən və Qazaxıstanın Ablai Xan Beynəlxalq Münasibətlər və Dünya Dilləri UniversitetindənAlyspysbayevaSauletdir. Yerli mütəxəssislər isə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentindən Nailə Qasımova və Jalə Hüseynovadır.

Müsabiqənin nəticələri 2023-cü ilin yanvar ayında elan ediləcək.

# DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE HOLDS "PARAGRAPH WRITING" CONTEST

On December 9, Khazar University English Language and Literature Department hosted the first Paragraph Writing Contest. Thirty BA students from various majors took part in the writing competition. After successfully passing the selection phase, the participants took part in the last phase writing a paragraph of 350-400 words.

The panel of judges consists of external and internal examiners who are responsible for the evaluation of the writings in accordance with the agreed marking scheme. The external examiners of the contest are Hamza Hassan from University Malaysia Sarawak, Malaysia, and Alyspysbayeva Saulet from Kazakh Ablai Khan University of International Relations and World Languages, Kazakhstan. The internal examiners are Naila Gasimova and Jala Huseynova from the Department of English Language and Literature, Khazar University.

The contest results will be announced in January 2023.





## DEPARTAMENT MÜDİRİ TÜRKİYƏNİN BBN TÜRK VƏ AZƏRBAYCANIN ARB24 KANALLARININ CANLI YAYIMINDA

## DEPARTMENT HEAD ON LIVE BROADCAST OF TURKEY'S BBN TURK AND AZERBAIJAN'S ARB24 CHANNELS

2022-ci il noyabrın 21-22-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Türkiyənin BBN Türk və Azərbaycanın arb24 kanallarının canlı yayım qonağı olaraq, Rusiya-Ukrayna müharibəsindəki son vəziyyəti, cəbhədə baş verən uğursuzluqların Rusiya daxili siyasətinə təsirini geniş şəkildə şərh etmişdir.

On November 21-22, 2022, Telman Nusratoğlu, the head of Khazar University's History and Archeology Department, as a live broadcast guest of Turkey's BBN Turk and Azerbaijan's arb24 channels, broadly commented on the latest situation in the Russian-Ukrainian war and the impact of the failures on the front on Russian domestic politics.

## "XƏZƏR"İN MÜƏLLİMİNİN MƏQALƏSİ BRAIN SCIENCES JURNALININ XÜSUSİ BURAXILIŞINDA

Psixologiya departamentinin müəllimi və doktorantı Ülkər İsayevanın "Converging Evidence Points to BDNF as Biomarker of Depressive Symptoms in Schizophrenia-Spectrum Disorders" ("Konvergent sübutlar şizofreniya-spektr pozğunluqlarında depressiv simptomların biomarkeri kimi BDNF-yə işarə edir") adlı məqaləsi Brain Sciences jurnalının "Psychopharmacology and Biological Studies of Psychosis" ("Psixofarmakologiya və Psixozun Bioloji Tədqiqatları"") adlı xüsusi buraxılışında çap edilib.

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:

## ARTICLE BY KHAZAR UNIVERSITY FACULTY MEMBER IN THE SPECIAL ISSUE OF BRAIN SCIENCES JOURNAL

The article "Converging Evidence Points to BDNF as Biomarker of Depressive Symptoms in Schizophrenia-Spectrum Disorders" by Ulkar Isayeva, the lecturer and doctoral student of the Department of Psychology, was published in the special issue of Brain Sciences journal entitled "Psychopharmacology and Biological Studies of Psychosis".

The article is available at the following link:

https://www.mdpi.com/2076-3425/12/12/1666

## DEPARTAMENT MÜDİRİ TÜRKİYƏ TELEVİZİYALARINDA

## HEAD OF THE DEPARTMENT ON TURKISH TV CHANNELS

2022-ci il dekabrın 11-də Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Türkiyənin NTV və BBN Türk televizyalarının yayın qonağı olmuşdur. Departament müdiri NTV-də Azərbaycanın tarix və mədəniyyətinin tanıdılmasına həsr olunan proqramda Şəhidlər Xiyabanı, Azərbaycan milli istiqlal mübarizəsinin tarixi və Qafqaz İslam Ordusu haqqında Türkiyə tamaşaçılarına geniş məlumat vermiş, BBN Türk-də yayımlanan "Dış İşleri" proqramında da Azərbaycan-İran münasibətlərini şərh etmişdir.

On December 11, 2022, the head of the Department of History and Archeology, Telman Nusratoghlu, was a guest of Turkey's NTV and BBN Turkish televisions. The head of the department gave detailed information about the Alley of Martyrs, the history of Azerbaijan's national independence struggle and the Caucasian Islamic Army in the program dedicated to promoting the history and culture of Azerbaijan on NTV, and commented on Azerbaijan-Iran relations in the "Foreign Affairs" program broadcast on BBN Türk.

# XƏZƏR UNİVERSİTETİNDƏ "AVROPA İTTİFAQININ RUSİYANIN UKRAYNAYA HƏRBİ MÜDAXİLƏSİNƏ CAVABI" MÖVZUSUNDA SİMULYASİYA OYUNU

# COUNTRYWIDE SIMULATION ON "EU RESPONSE TO RUSSIA'S INVASION OF UKRAINE" AT KHAZAR UNIVERSITY

Dekabrın 12-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə Rusiya-Ukrayna müharibəsi səbəbindən Rusiyaya qarşı Avropa ittifaqının atacağı addımlara dair Avropa İttifaqı Şurasının simulyasiyası təşkil edilmişdir.

Erasmus+ Jean Monnet Module layihəsi çərçivəsində baş tutan simulyasiya oyunlarında ölkənin 6 ali təhsil müəssisəsində təhsil alan tələbələr iştirak etmişdir.

Simulyasiya oyunundan öncə Jean Monnet layihəsinin akademik koordinatorları Dr. Elmar Mustafayev və Zibər Hüseynova tərəfindən iştirakçılar Avropa İttifaqı və institutlarının səlahiyyətləri barəsində təlimatlandırılmış, üzv dövlətlərin dövlət və ya hökümət başçıları, Aİ Şurasının Prezidenti və Aİ-nin Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayyəndəsi rollarına bölünmüşdür. Eyni zamanda, rollara ayrılmış tələbələrin qarşısında müvafiq olaraq təmsil etdikləri ölkələrin milli maraq və təhlükəsizlikləri, eləcə də ümumavropa maraqlarının dərindən araşdırılmas məqsədi qoyulmuşdur.

Üzv dövlətlərin mövqeyində olan fərqlərə baxmayaraq, Aİ sammitini simulyasiya edən tələbələr sonda yeni sanksiya paketinin qəbulunda və Ukraynaya hərbi, iqtisadi və humanitar yardımın göstərilməsində razılağa gəlmişlər.

On December 12, the Political Science and Philosophy Department of Khazar University organized a countrywide simulation on the meeting of the European Council over its response to Russia's invasion of Ukraine.

Organized within the Erasmus+ Jean Monnet Module, the simulation of the European Council meeting was attended by students from 6 different HEIs.

Previously instructed by the academic coordinators of the Erasmus+ Jean Monnet project Dr. Elmar Mustafayev and Zibar Huseynova on the roles and competencies of the EU and its institutions, the students were split into the roles of heads of states or governments of the member-states, the President of the European Council, and the High Representative of the Union for Foreign Affairs and Security Policy. The participant students were tasked with studying the position of their respective roles from the perspective of their national interest and security concerns, as well as the common European interests.

During the simulation day, the sanction packages of the EU to Russia become the subject of heated debate among the member-states. While some member-states demanded imposing sanctions on Russia's energy sector, the others due to their considerable reliance on Russia's energy disagreed to hit on Russia's energy export.

Despite the differences, the students simulating the EU summit agreed on imposing a new sanction package, as well as the humanitarian, economic and military assistance of the Union to Ukraine.



# TÜRKİYƏ CÜMHURİYYƏTİ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ KİRŞEHİR RAYON RƏHBƏRLİYİ VƏ GƏNC KÖNÜLLÜLƏRİ XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDULAR

# KIRSHEHIR PROVINCIAL DIRECTORATE OF YOUTH SERVICES AND SPORTS OF THE REPUBLIC OF TÜRKIYE AND YOUNG VOLUNTEERS AT KHAZAR UNIVERSITY



Dekabrın 13-də Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbərliyi və gənc könüllülər Xəzər Universitetində oldular.

Qonaqlar ilk öncə Nailəxanım Mədəniyyət Mərkəzini ziyarət etdilər.

Sonra Universitetin Mərmər salonunda qonaqlarla universitet rəhbərliyi və əməkdaşlarının görüşü keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva və digər departamentlərin nümayəndələri iştirak etdilər.

Rektor İradə Xəlilova Xəzər Universitetinin qonağı olan Türkiyəli heyəti salamladı, onlara universitet haqqında geniş məlumat verdi.

Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbəri Numan Şahin, şöbə müdiri Aslan Uçar, layihə rəhbəri Hakan Avşar və könüllüləri geniş təqdimatla çıxış etdilər.

On December 13, Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye and young volunteers visited Khazar University.

The guests first visited the Nailakhanim Culture Center.

Afterwards, a meeting of the university administration and employees with the guests was held in the Marble Hall of the university. The meeting was attended by the rector of Khazar University Irada Khalilova, vice-rector for Academic Affairs Mahammad Nuriyev, vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli, vice-rector for International Relations Vlad Vernygora, director for Public Relations and Media Alovsat Amirbeyli, dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova, dean of the School of Economics and Management Jeyhun Mammadov, dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, coordinator of the International Relations Office Fatima Valiyeva and representatives of other departments.

Rector Irada Khalilova welcomed the Turkish delegation, who were guests of Khazar University, and gave them detailed information about the university. Numan Şahin, the director of the Kırşehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye, Aslan Uchar, the head of



Xəzər Universitetinin Kamera orkestri böyük sənətkar Üzeyir Hacıbəyovun əsərlərini səsləndirdi, universitetin qızlardan və oğlanlardan ibarət rəqs ansamblı Azərbaycan və türk rəqsləri ilə qonaqları heyrətləndirdi.

Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbəri Numan Şahin Xəzər Universitetinin rəhbərliyinə qonaqpərvərliyə görə dərin təşəkkürünü bildirdi və rektor İradə Xəlilovaya təşəkkür plaketi, hədiyyələr təqdim etdi.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxış edərək, "Türkiyə-Azərbaycan Gənclər Mübadiləsi" proqramı çərçivəsində 5 gün Xəzər Universitetinin qonağı olacaq Kırşehirli qonaqlar haqqında məlumat verdi.

the department, Hakan Avşar, the project manager, and project volunteers delivered a wide presentation.

Khazar University's Chamber Orchestra performed the works of the great composer Uzeyir Hajibeyov, and the university's girls' and boys' dance ensemble surprised the guests with Azerbaijani and Turkish dances.

Numan Shahin, the director of the Kırşehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye, made a speech and expressed his deep gratitude to Khazar University administration for their hospitality and presented a thank you plaque and gifts to the rector Irada Khalilova.

Alovsat Amirbeyli, the director of Public Relations and Media of the university, spoke and informed







Proqram çərçivəsində qonaqlar Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyavanın rəhbərliyi ilə Bakının görməli yerləri ilə tanış olacaq, Şəhidlər Xiyabanını, Bakı Türk Şəhidliyini ziyarət edəcəklər.

Yeni ilin yanvar ayında "Türkiyə-Azərbaycan Gənclər Mübadiləsi" proqramı çərçivəsində Xəzər Universitetinin tələbələri Kırşehir, Nevşehir, Kapadokya və Ankaraya səfər edəcəklər.

Səfər proqramı 5 gün davam edəcək.

Tədbirdən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı qonaqları qəbul etdi. Səmimi tanışlıq və söhbət şəraitində keçən görüşdə Numan Şahin Hamlet İsaxanlıya təşəkkürünü bildirdi və hədiyyə təqdim olundu.

about the guests from Kırshehir, who will be guests of Khazar University for 5 days within the framework of the Türkiye-Azerbaijani Youth Exchange program.

Within the framework of the program, the guests will get acquainted with the sights of Baku under the guidance of Fatima Valiyava, the coordinator of the International Relations Office, they will visit the Alley of Martyrs, the Baku Turkish Martyrs' Memorial.

In January of the new year, students of Khazar University will visit Kırshehir, Nevshehir, Cappadocia and Ankara within the framework of the "Turkey-Azerbaijani Youth Exchange" program.

The program of the visit will last 5 days. After the event, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli received the guests. Numan Shahin expressed his gratitude to Hamlet Isakhanli and a gift was presented at the meeting which took place in a friendly atmosphere.





## TÜRKİYƏ CÜMHURİYYƏTİ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ KİRŞEHİR RAYON RƏHBƏRLİYİ VƏ KÖNÜLLÜLƏRİ BAKI GƏNCLƏR MƏRKƏZİNDƏ

Dekabrın 13-də Xəzər Universitetinin qonağı olan türkiyəli idman nümayəndələri və gənc könüllülər Bakı Gənclər Mərkəzində (BGM) oldular. Qeyd edək ki, BGM Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən sosial xidmət müəssisəsidir.




BGM-nin direktoru Nərgiz Babayeva, əməkdaşları və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyevanın iştirakı ilə qonaqlarla görüş keçirildi. Nərgiz Babayeva və kollektivi qonaqlara BGM-nin fəaliyyəti haqqında geniş məlumat verib, onları mərkəzlə ətraflı tanış etdilər.

Kırşehirli könüllü, Ahi Evren Universitetinin tələbəsi Emine Ayan geniş təqdimatla çıxış etdi. Sonda Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon müdüri Numan Şahin BGM-nin rəhbəri Nərgiz Babayevaya təşəkkür plaketi və hədiyyə təqdim etdi və xoş qəbul üçün dərin təşəkkürünü bildirdi.

## KIRSHEHIR PROVINCIAL DIRECTORATE OF YOUTH SERVICES AND SPORTS OF THE REPUBLIC OF TÜRKIYE AND VOLUNTEERS AT BAKU YOUTH CENTER

On December 13, Turkish sports representatives and young volunteers, who were guests of Khazar University, visited the Baku Youth Center (BYC). Note that BYC is a social service institution operating under the Ministry of Youth and Sports of the Republic of Azerbaijan.

A meeting with the guests was held with the participation of Nargiz Babayeva, director of BYC, Alovsat Amirbeyli, director of Public Relations and Media of Khazar University and Fatima Valiyeva, coordinator of International Relations Office. Nargiz Babayeva and her team provided the guests with detailed information about BYC's activities and introduced them to the center.

Emine Ayan, volunteer from Kırşehir, student of Ahi Evren University, delivered a comprehensive presentation. In the end, the director of the Kırşehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Turkey, Numan Sahin, presented a thank you plaque and a gift to the head of the BYC, Nargiz Babayeva, and expressed his deep gratitude for the warm reception.



# TÜRKİYƏ CÜMHURİYYƏTİ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ KIRŞEHİR RAYON RƏHBƏRLİYİ VƏ KÖNÜLLÜLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ

# KIRSHEHIR PROVINCIAL DIRECTORATE OF YOUTH SERVICES AND SPORTS OF THE REPUBLIC OF TÜRKIYE AND VOLUNTEERS AT "DUNYA" SCHOOL

Dekabrın 14-də türkiyəli qonaqlar Xəzər Universitetinin "Dünya" məktəbində oldular. Universitetin ictimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli "Türkiyə-Azərbaycan Gənclər Mübadiləsi" proqramı çərçivəsində Xəzər Universitetinə gəlmiş kırşehirli qonaqları təqdim etdi.

"Dünya" məktəbinin direktoru Nazpəri Bayramova qonaqlara məktəb haqqında məlumat verdi. "Dünya" məktəbi haqqında film nümayiş etdirildi. Qonaqlar Nailəxanım muzeyində "Dünya" məktəbinin qurucusu Nailəxanım İsayevanın həyat və fəaliyyətini, işgüzar və yaradıcılıq əlaqələrini dolğun əks etdirən fotostendlər, eksponatlar və şəxsi əşyaları, sonra isə məktəbin kitabxanası ilə tanış oldular

Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbəri Numan Şahin, şöbə müdiri Aslan Uçar, layihə rəhbəri Hakan Avşar və könüllülər çıxış edərək, səfərdən məmnun olduqlarını bildirdilər. Qonaqların şərəfinə ziyafət verildi.

Həmin gün qonaqlar üçün "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu və "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna ekskursiya təşkil edildi.

Dekabrın 15-də qonaqlar "Şəhidlər Xiyabanı", "Bakı Türk şəhidliyi", "Qız Qalası", "Dağüstü Park", "Alov qüllələri", "Bakı bulvarı" və "Seyid Yəhya Bakuvi türbəsi"ni ziyarət etdilər, "İçərişəhər"lə tanış oldular.

On December 14, Turkish guests visited Khazar University's "Dunya" school. Khazar University Public Relations and Media director Alovsat Amirbeyli introduced the guests from Kirshehir who came to Khazar University within the framework of the "Türkiye-Azerbaijani Youth Exchange" program.

The director of "Dunya" school, Nazpari Bayramova, informed the guests about the school. A film about "Dunya" school was demonstrated. The





guests got acquainted with photo booths, exhibits and personal belongings, which fully reflect the life and activities, business and creative relations of the founder of "Dunya" school, Nailekhanim Isayeva, and then with the school's library.

The head of Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye Numan Shahin, head of department Aslan Uchar, project leader Hakan Avshar and volunteers expressed their satisfaction with the visit. A banquet was held in honor of the guests.

On the same day, an excursion to the State Historical-Architecture Reserve "Ateshgah Temple" and the State History-Culture and Nature Reserve "Yanardag" was organized for the guests.

On December 15, the guests visited the "The Alley of Martyrs", " Baku Turkish Martyrs' Memorial ", " Maiden's Tower ", "Upland Park", "Flame Towers", "Baku Boulevard" and " Mausoleum of Seyid Yahya Bakuvi ", "Icherisheher".



# TÜRKİYƏ CÜMHURİYYƏTİ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ KIRŞEHİR RAYON RƏHBƏRLİYİ VƏ KÖNÜLLÜLƏRİNƏ SERTİFİKAT TƏQDİM OLUNDU

# CERTIFICATE PRESENTED TO THE MANAGEMENT OF KIRSHEHIR PROVINCIAL DIRECTORATE OF YOUTH SERVICES AND SPORTS OF THE REPUBLIC OF TÜRKIYE AND VOLUNTEERS




Dekabrın 16-da Xəzər Universitetinin Buzovnadakı "Xəzər İnci" hotelinin konfrans-konsert salonunda Bakıda səfərdə olan türkiyəli qonaların yola salınması mərasimi keçirildi. Mərasimdə dekabrın 12-dən Xəzər Universitetinin qonağı olan Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon müdiri Numan Şahin, şöbə müdiri Aslan Uçar, layihə rəhbəri Hakan Afşar və Ahi Evren Üniversitetindən olan könüllülər Xəzər Universitetində olmaqdan məmnun qaldıqlarını və universitet rəhbərliyinə təşəkkürlərini bildirdilər.

İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli qonaqlara Xəzər Universitetinin rektoru tərəfindən imzalanmış sertifikatları təqdim etdi.

Qonaqlar Bakı hava limanından Ankaraya yola salındı.

"Türkiyə-Azərbaycan Gənclik Mübadiləsi" proqramına müvafiq olaraq, Xəzər Universitetinin bir qrup tələbəsi 2022-ci il yanvarın 23-27-də Ankara, Kırşehir, Nevşehir və Kapadokyada səfərdə olacaqlar.

On December 16, a farewell ceremony was held for Turkish delegations visiting Baku in the conference-concert hall of the "Khazar Inci" hotel of Khazar University in Buzovna. At the ceremony, the head of Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye Numan Şahin, the branch manager Aslan Uchar, the project manager Hakan Afshar and the volunteers from Ahi Evren University, who have been guests of Khazar University since December 12, expressed their satisfaction at being at Khazar University and thanked to the university management.

Public Relations and Media director Alovsat Amirbeyli presented the guests with certificates signed by the rector of Khazar University.

The guests were sent off from Baku airport to Ankara.

According to the "Türkiye-Azerbaijan Youth Exchange" program, a group of Khazar University students will visit Ankara, Kırshehir, Nevshehir and Cappadocia on January 23-27, 2022.



# GƏNCƏ "DÜNYA" MƏKTƏBİNDƏ REGİONAL KONFRANS KEÇİRİLİB

Dekabrın 17-də AzETA (Azərbaycan Respublikası İngilis Dili Müəllimləri Birliyi) Gəncə "Dünya" Məktəbində birliyin Samux filialının rəhbəri Aidə Elyazova və Gəncə "Dünya" Məktəbinin koordinatoru Aslan Quliyevin təşkilatçılığı ilə regional konfrans keçirib. Konfrans öyrədici, eyni zamanda mübadilə xarakterli olub.

Konfransda Bakı, Bərdə, Gəncə, Göygöl, İsmayıllı, Mingəçevir, Qəbələ, Samux, Şirvan, Sumqayıt, Şəki və Yevlaxdan olan 120-dək müəllim iştirak edirdi.

Konfransın açılış mərasimində çıxış edənlər bu cür konfransların müəllimlərin peşəkar inkişafında rolunu vurğulayıblar.

Sonra qonaq qismində dəvət olunan Jeimy Maldonado xarici dilin erkən yaşlarda öyrənilməsi və AzETA Bərdə filialının rəhbəri Tofiqə Məmmədova uğurlu layihələrin yazılışı mövzusunda plenar məruzə ilə çıxış ediblər. Sonra konfrans öz işini bölmələrdə davam etdirib.

Konfransın sonunda ailəsi ilə Gəncədə yaşayan və işləyən kolumbiyalı Diyeqo gitarada öz milli mahnılarını ifa edib.

# A REGIONAL CONFERENCE HELD AT "DUNYA" SCHOOL IN GANJA

On December 17, AzETA (Azerbaijan English Teachers` Association) held a regional conference at the Ganja "Dunya" School under the organization of Aida Elyazova, the head of the union's Samukh branch, and Aslan Guliyev, the coordinator of the Ganja "Dunya" School. The conference was informative as well as educational.

About 120 teachers from Baku, Barda, Ganja, Goygol, Ismayilli, Mingachevir, Gabala, Samukh, Shirvan, Sumgait, Sheki, Yevlakh participated in the conference.

Speakers at the opening ceremony of the conference emphasized the role of such conferences in the professional development of teachers.

Then Jeimy Maldonado, who was invited as a guest, gave a plenary talk on learning a foreign language at an early age and Tofiqa Mammadova, head of AzETA Barda branch, on writing successful projects. Then the conference continued its work in sessions.

At the end of the conference, Colombian Diego, who lives and works in Ganja with his family, played national songs on guitar.




# MİLYARDER YUSAKU MAEZAVA DAHA İKİ NƏFƏRİ AYA UÇUŞ ÜÇÜN SEÇİB

Yapon milyarder Yusaku Maezava K-pop ulduzu TOP-u və DJ Stiv Aokin-i İlon Maskın SpaceX raketi ilə Aya birlikdə uçuş üçün seçib.

Tanınmış K-pop ulduzu və DJ yapon milyarderin Aya gələn ilə planlaşdırılan uçuş üçün seçəcəyi səkkiz yoldaşdan ikisi olacaq.

Xatırladaq ki, Y.Maezava Aya ilk səyahət üçün 2018-ci ildə başlamış layihədə kosmik gəmidə olan bütün yerləri alıb. Bu onun "Soyuz" kosmik gəmisində 12 gün davam etmiş səyahətindən sonra ikinci belə uçuş olacaq.

Yaponiyalı moda maqnatı və onun yoldaşları Ayın ətrafına dolanacaq, SpaceX kosmik gəmisinin ilk sərnişinləri olacaqlar. Y.Maezava səkkiz yoldaşını seçmək üçün öz mikrobloq saytından istifadə edib. Bu günədək həmin çağırışa bir milyondan çox insanın cavab verdiyi bildirilir.

Qrupda, həmçinin hindistanlı aktyor Dev Coş-un da yer aldığı bildirilir. Bundan əlavə, amerikalı snoubordist Keytlin Farrinqton və yapon rəqqasə Miyu da heyətin ehtiyat üzvləri elan ediliblər.

**Vüqar Ağayev**
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Tokio*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin Kitabxana İnformasiya Mərkəzinin əməkdaşı Esmira Hüseynovaya anası

**Eliza Mehtiyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

**650-700 bal - təhsil haqqından tam azad edilir**
**600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir**
**550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir**
**500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir**
**450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir**
**400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir**
**350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir**

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi